DİNİMİZ MİLLİ-MƏNƏVİ SƏRVƏTİMİZDİR. Heydər Əliyev

www.scwra.gov.az

CƏMİYYƏT və DİN

TƏSİSÇİ: Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi

№ 08 (349) / NOYABR 2020-Cİ İL

# Prezident İlham Əliyev: Biz bu Qələbəni birlik, əzm, iradə və güc hesabına əldə etdik



Noyabrın 23-də Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva işğaldan azad edilmiş Ağdam şəhərində olublar.

Ağdama gedən yolda avtomobili özü idarə edən **Prezident İlham Əliyev deyib:**

- Baxın, düşmənin müdafiə xətti. Ağdam şəhərinə qədər düşmənin bir neçə müdafiə xətti var idi, baxın.

İndi biz işğaldan azad edilmiş torpaqlara keçirik. İstiqamət Ağdam şəhəridir. Ağdam şəhərini və Ağdam rayonunun işğal altında olmuş torpaqlarını biz bir güllə atmadan azad etdik. Düşməni döyüş meydanında məğlub edərək məcbur etdik ki, Ağdam rayonundan çəkilsin.

Baxın, daha bir müdafiə xətti. Sağda da Azərbaycan vətəndaşlarının düşmən tərəfindən dağıdılmış evləridir. Bütün dünya görsün ki, vəhşi düşmən bizim kəndlərimizi nə günə qoyub, biz hansı vəhşilərlə üz-üzə idik, biz hansı vəhşiləri məğlub etmişik. Bütün dünya bunu görməlidir.

Bir dənə də salamat bina yoxdur, hamısını dağıdıblar. Evlərimizi, kəndlərimizi dağıdıblar, torpaqlarımızdan istifadə ediblər. Bütün hərbi cinayətlərə görə düşmən cavab verəcək. Biz Ağdam şəhərinə də jurnalistləri, o cümlədən xarici jurnalistləri, diplomatik korpusun nümayəndələrini dəvət edəcəyik. Qoy, gəlsinlər, görsünlər.

Dövlətimizin başçısı Ağdamda Azərbaycanın üçrəngli bayrağını qaldırdı. İyirmi yeddi ildən sonra işğaldan azad olunan Ağdamda indi dövlət bayrağımız qürurla dalğalanır. Bu görüntüləri hər bir azərbaycanlı fəxrlə və böyük sevinclə izləyir.

Bir vaxtlar qaynar həyatın olduğu, əməksevər insanların qurub-yaratdıqları abad şəhərdən əsər-əlamət qalmayıb. Erməni işğalçılar xislətlərinə uyğun olaraq, Ağdamın ağ damlarını xarabalığa çeviriblər, şəhəri darmadağın ediblər.

Sonra dövlətimizin başçısı və birinci xanım Ağdam məscidini ziyarət etdilər. Xocalı soyqırımında sağ qalan xocalıların ümid, pənah yerinə çevrilən qoşa minarəli məscid də yırtıcı düşmən tərəfindən vəhşicəsinə dağıdılıb.

Prezident İlham Əliyev Məkkədən gətirdiyi “Qurani-Kərim”i Ağdam məscidinə bağışladı.

Azərbaycan Prezidenti və birinci xanım məsciddə dua ediblər.

Dövlətimizin başçısı Ağdam məscidinin qarşısında çıxış edib.

**Prezident İlham Əliyevin çıxışı**

- *Əziz həmvətənlər.*

Bildiyiniz kimi, noyabrın 20-də Ağdam şəhəri və Ağdam rayonunun işğal altında olan hissəsi işğaldan azad edilib. Bu münasibətlə mən Azərbaycan xalqını təbrik etmişdim, ağdamlıları təbrik etmişdim. Bu gün mən buradayam, Ağdam şəhərindəyəm. Ağdam məscidini ziyarət etmişəm, Azərbaycan Dövlət Bayrağını qaldırmışam. Biz Ağdama qayıtmışıq. Bütün ağdamlıları bu tarixi hadisə münasibətilə bir daha təbrik etmək istəyirəm. Bilirəm ki, ağdamlılar bu günü uzun illər ərzində səbirsizliklə gözləyiblər. Həm işğal dövründə - 30 ilə yaxın müddət ərzində, eyni zamanda, İkinci Qarabağ müharibəsi, Vətən müharibəsi dövründə gözləyirdilər ki, Ağdam işğaldan nə vaxt azad ediləcək. Biz öz tarixi missiyamızı şərəflə yerinə yetirdik, işğal olunmuş torpaqları düşməndən azad etdik. Döyüş meydanında əldə edilən qələbə imkan verdi ki, Ağdam rayonu, eyni zamanda, Kəlbəcər və Laçın rayonları bir güllə atmadan, bir şəhid vermədən işğaldan azad edilsin.

Biz bu torpaqlara Azərbaycan xalqının, şəhidlərimizin canı, qanı bahasına, qəhrəmanlarımızın şücaəti hesabına qayıtmışıq. Biz güc toplamalı idik və toplayırdıq. Mən son 17 il ərzində xalqa müraciət edərkən dəfələrlə deyirdim ki, biz daha güclü olmalıyıq, daha qüdrətli ordu qurmalıyıq. Bu gün dünyada güc amili həlledici rol oynayır. Haqq-ədalət bizim tərəfimizdədir, beynəlxalq hüquq bizim tərəfimizdədir, güc də bizim tərəfimizdə olmalıdır. Məhz gücümüzün yetərli dərəcədə olmaması nəticəsində Azərbaycan 1990-cı illərin əvvəllərində işğala məruz qalmışdır. Biz güc toplayırdıq, güclənirdik. Həm deyirdim ki, hər gün hər bir Azərbaycan vətəndaşı bu müqəddəs günü, bu zəfər gününü öz əməyi, zəhməti, Vətənə olan sədaqəti ilə yaxınlaşdırmalıdır.

davamı səh. 2

## “MÜASİR DÜNYANIN PROBLEMLƏRİ: NİFRƏTƏ ÇAĞIRIŞ, TERROR, EKSTREMİZM, İSLAMOFOBİYA VƏ ERMƏNİSTANIN AZƏRBAYCANA QARŞI TƏCAVÜZÜ”



Səh. 4-5

## DQİDK SƏDRİ “DİN VƏ ETİQAD AZADLIĞININ İRƏLİLƏDİLMƏSİ ÜZRƏ ÜÇÜNCÜ NAZİRLƏR KONFRANSI”NDA ÇIXIŞ EDİB



Səh. 5-6

## NİC QƏSƏBƏSİNDƏKİ ALBAN KİLSƏSİ HEYDƏR ƏLİYEV FONDU TƏRƏFİNDƏN ƏSASLI TƏMİR VƏ BƏRPA EDİLƏRƏK İSTİFADƏYƏ VERİLİB



Səh. 13

## “QƏLƏBƏYƏ GÖRƏ ALLAHA TƏŞƏKKÜR MESSASI” KEÇİRİLİB



Səh. 14

# Prezident İlham Əliyev: Biz bu Qələbəni birlik, əzm, iradə və güc hesabına əldə etdik

əvvəli səh. 1

Biz beynəlxalq müstəvidə böyük işlər apardıq və mən öz çıxışlarımda xalqa bu barədə kifayət qədər məlumat vermişdim. Bu gün, müharibə başa çatandan sonra və hətta müharibə dövründə bütün dünya, bütün Azərbaycan xalqı gördü ki, bunun nə qədər böyük əhəmiyyəti var idi. Əgər biz münaqişənin həlli üçün lazımi hüquqi baza yaratmasaydıq, bu gün problemlərlə üzləşə bilərdik. Biz bütün beynəlxalq təşkilatlarda ədaləti, beynəlxalq hüququ tanıyan, əks etdirən qərar və qətnamələr qəbul etdirdik. BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi 1993-cü ildə qəbul edilmişdir. Amma ondan sonra biz BMT Baş Assambleyasının qətnamələrini, İslam Əməkdaşlıq Təşkilatının qətnamələrini, Qoşulmama Hərəkatının, Avropa Parlamentinin, Avropa Şurası Parlament Assambleyasının qərar, qətnamələrini qəbul etdirərək münaqişənin həlli üçün çox möhkəm hüquqi baza yaratdıq. 2003-cü ildən bu günə qədər bütün bu lazımi addımlar atıldı və biz siyasi müstəvidə qələbə qazandıq. Eyni zamanda, iki il bundan əvvəl Avropa İttifaqı ilə Azərbaycan arasında paraflanmış "Tərəfdaşlıq prioritetləri" sənədində də Azərbaycanın suverenliyi, ərazi bütövlüyü və sərhədlərimizin toxunulmazlığı haqqında açıq ifadələr var. Bu, bizim böyük uğurumuzdur. Çünki uzun illər ərzində biz buna nail ola bilməmişdik. Bəzi beynəlxalq təşkilatlar işğalçını öz adı ilə çağırmaq istəmirdilər. Bəzi beynəlxalq təşkilatlar işğalla bağlı qəbul edilmiş sənədlərdə işğalçının kim olduğunu göstərmək istəmirdilər. Hətta BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsində Ermənistan işğalçı dövlət kimi göstərilmədi. Orada "erməni qüvvələri" yazılmışdı.

Biz son 17 il ərzində münaqişənin həlli üçün hüquqi baza yaratdıq. Mən bütün beynəlxalq təmaslarımda Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Azərbaycanın mövqeyini, tarixi həqiqətləri və mövcud vəziyyəti bütün həmkarlarıma çatdırmışdım. Mənim demək olar ki, bütün ikitərəfli beynəlxalq təmaslarımda Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi xüsusi yer alır. Mənim bütün çıxışlarıma baxmaq kifayətdir. Son 17 il ərzində demək olar ki, bütün çıxışlarımda bu məsələ ilə bağlı öz fikrimi bildirmişdim, dünya ictimaiyyətini məlumatlandırmışdım. Çünki əfsuslar olsun ki, 1990-cı illərin əvvəllərində münaqişə ilə bağlı dünyada dolğun təsəvvür yox idi, təhrif edilmiş məlumat var idi. Erməni lobbisi tərəfindən ortalığa atılmış məlumat var idi. Əks-təqdirdə, bizim torpaqlarımız işğal altına düşə-düşə Amerika Konqresi məşhur 907-ci düzəlişi qəbul etməzdi. Azərbaycan torpaqları işğal altına düşürdü, ancaq Amerika Konqresi Azərbaycanı təcavüzkar kimi tanımışdır və bizi humanitar yardımdan məhrum etmişdir. O vaxt erməni lobbisi buna nail oldu. Azərbaycan diplomatiyası, sadəcə olaraq, onların qarşısında adekvat addım ata bilməmişdir.

Biz informasiya müharibəsində qələbə qazandıq. Biz Xocalı soyqırımı haqqında dünyaya dolğun məlumat verdik. Xocalı soyqırımı haqqında dünyada məlumat yox idi. "Xocalıya ədalət!" kampaniyası, 10-dan çox ölkə tərəfindən Xocalı soyqırımının soyqırımı kimi tanınması demək olar ki, münaqişə ilə bağlı həqiqəti əks etdirən mənzərəni yaratdı və dünya ictimaiyyətinə çatdırdı.

Biz - Qoşulmama Hərəkatına sədrlik edən ölkə BMT-dən sonra ikinci böyük təsisat olan Qoşulmama Hərəkatına sədrlik etdiyimiz dövrdə də bu məsələni diqqət mərkəzində saxlamışıq. Bu gün 120 ölkəni birləşdirən təşkilata Azərbaycan sədrlik edir. Keçən il Zirvə görüşü keçirilmişdir. Bu gün Azərbaycan xalqı bir daha görür ki, bunun nə qədər böyük önəmi var idi. Çünki İkinci Qarabağ müharibəsi dövründə BMT-də, BMT Təhlükəsizlik Şurası tərəfindən yeni qətnamənin qəbul edilməsi cəhdləri də baş vermişdir. O qətnamə qəbul edilsəydi, əlbəttə ki, bizi dayandıra bilməzdi, ancaq lazım olmayan bir mənzərə yarada bilərdi. Məhz Qoşulmama Hərəkatına üzv ölkələr o qətnamənin qəbul olunmasına imkan vermədilər, bizi dəstəklədilər. Mən də onlara təşəkkürümü bildirdim və demişdim ki, onlar bizim arxamızda kişi kimi durdular. Baxmayaraq ki, böyük dövlətlər onlara böyük təzyiqlər göstərirdi. Qoşulmama Hərəkatının bir çox üzvləri Azərbaycanı həm müstəqil, həm güclü, həm də onları müdafiə etməyə hazır olan ölkə kimi tanıyır. Biz pandemiya dövründə 30-dan çox ölkəyə humanitar maliyyə yardımı göstərmişik, o cümlədən Ümumdünya Səhiyyə Təşkilatının xətti ilə Qoşulmama Hərəkatına xüsusi bir yardım göstərmişik. Görülmüş bütün bu işlər səmərəsini verdi. Biz bizim üçün əsas məsələ olan Ermənistan-Azərbaycan Dağlıq Qarabağ məsələsində lazımi beynəlxalq dəstəyi ala bildik.

Biz bu gün təkcə Qoşulmama Hərəkatına yox, eyni zamanda, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına da sədrlik edirik. Bizim beynəlxalq nüfuzumuz kifayət qədər yüksəkdir və bu, münaqişənin həlli üçün xüsusi rol oynamışdır.

Mən bu 17 il ərzində daim deyirdim ki, biz iqtisadi sahəyə güclü təkan verməliyik, iqtisadi müstəqilliyimizi təmin etməliyik və təmin etdik. Bu gün biz iqtisadi cəhətdən heç kimdən asılı deyilik. Asılı olsaydıq, bizə təzyiqlər edilə bilərdi. Onsuz da edilmişdi, ancaq onların heç bir səmərəsi olmadı. Çünki bizə qarşı iqtisadi amildən istifadə etmək mənasızdır. Biz heç kimdən asılı deyilik, hansısa ölkədən, hansısa beynəlxalq maliyyə qurumundan asılı deyilik. Əksinə, biz özümüz indi donor ölkəyik, biz özümüz indi kreditlər veririk. Bizim kifayət qədər güclü iqtisadi potensialımız və maliyyə resurslarımız imkan verdi ki, iqtisadi müstəqilliyi tam təmin edək. Bu da qələbənin əldə edilməsində xüsusi rol oynayırdı. Çünki əgər biz iqtisadi cəhətdən müstəqil olmasaydıq, biz siyasi müstəqillik əldə edə bilməzdik. Siyasi müstəqillik olmadan torpaqlarımızı düşməndən azad edə bilməzdik. O düşməndən ki, onların arxasında böyük dövlətlər, o dövlətlərin çox nüfuzlu dairələri, erməni lobbi təşkilatları dayanır.

Bu amillər gücümüzü artırdı, qələbəmizi şərtləndirdi. O amillərin arasında birinci nömrəli məsələ hərbi gücümüzdür. Mən dəfələrlə demişdim ki, bizim üçün hərbi gücümüzün möhkəmləndirilməsi birinci məsələdir. Təsadüfi deyil ki, mənim prezidentlik dövrümdə bizim hərbi xərclərimiz hər il büdcə xərcləri arasında birinci yerdə idi. Mən deyirdim və ya vətəndaşlara izah edirdim ki, bəli, bizim çoxlu başqa məsələlərimiz var, həllini gözləyən problemlər var. Ancaq bizim əsas problemimiz torpaqlarımızın işğal altında olmasıdır. Ona görə bizim xərclərimiz arasında birinci yerdə hərbi xərclər dayanır. Biz lazım olan texnikanı aldıq. Bu texnikanı, müasir silahları Azadlıq meydanında dəfələrlə keçirilmiş paradlarda nümayiş etdirirdik. Biz ordumuzu inkişaf etdirərkən ən qabaqcıl meyilləri nəzərdən keçirmişdik. Biz o silahları alırdıq ki, bu silahlar bizim üstünlüyümüzü təmin etsin və İkinci Qarabağ müharibəsi bunu göstərdi.

Bu gün bir çox ölkələrdə, inkişaf etmiş ölkələrdə bizim təcrübəmiz öyrənilir. Bu gün bu məsələ ilə məşğul olan bir çox ekspertlər qeyd edirlər ki, Azərbaycan XXI əsrin müharibəsini aparıb. XXI əsrdə ilk dəfə olaraq, bu miqyasda və bu səmərə ilə qısa müddət ərzində tarixi nailiyyətlər əldə edilib. İndi buraya gələrkən mən ən azı üç müdafiə xəttini gördüm. Amma mənə hərbçilər tərəfindən verilən məlumata görə, beş müdafiə xətti var. Füzulidə də, həmçinin. Biz bu əsgər və zabitlərimizin qəhrəmanlığı, peşəkarlığı sayəsində müdafiə xəttini yarmışıq. Biz texniki cəhətdən ən müasir silahlarla təchiz edilmişik və İkinci Qarabağ müharibəsi bunu göstərdi, o videogörüntülər var. İndi onlar bir çox ölkələrdə öyrənilir və öyrəniləcək, hərbi kitablara salınacaq.

Eyni zamanda, biz ordumuzun döyüş potensialını gücləndirirdik. Çünki tam aydın idi ki, təkcə silahlarla qələbə qazanmaq mümkün deyil. Bayrağı qaldıran, bayrağı düşmənin mövqeyinə sancan, azad edilmiş torpaqlara sancan əsgərdir, zabitdir. Bizim əsgər və zabitlərimiz aslan kimi vuruşdular. Şəhidlər verdik. Allah bütün şəhidlərimizə rəhmət eləsin! Onların valideynlərinə Allah səbir versin! Yaralı hərbçilərimiz var, onlar da sağalırlar. Onların bir çoxu artıq sağalıb. Allah onlara şəfa versin! Biz qəhrəman əsgər və zabitlərimiz hesabına qələbə qazanmışıq. Təkcə Şuşanın işğaldan azad edilməsi əməliyyatı, əminəm ki, tarixdə əbədi qalacaq. Demək olar ki, yüngül silahlarla dərədən, meşələrdən, dağlardan keçərək əlbəyaxa döyüşdə düşməni məhv etdik, Qarabağın tacı olan Şuşanı azad etdik.

Bax, bütün bu amillər bizim qələbəmizi şərtləndirdi. Mən bir daha qeyd etmək istəyirəm ki, ağdamlılar bu günü uzun illər ərzində - 30 ilə yaxın idi gözləyirdilər. Eyni zamanda, İkinci Qarabağ müharibəsi zamanı da gözləyirdilər. Mən bilirəm və hiss edirəm ki, bizim şəhərlərimiz, rayonlarımız, kəndlərimiz işğaldan azad olunduqca ağdamlılar da fikirləşirdilər ki, nə vaxt onların kəndləri, Ağdam şəhəri azad olunacaq. Cəbrayıl azad olundu, Füzuli azad olundu, Hadrut azad olundu, Zəngilan, Qubadlı, Suqovuşan, Şuşa azad olundu və yəqin ki, ağdamlılar fikirləşirdilər ki, nə üçün Ağdam azad olunmur? İndi mən bunu deyə bilərəm. Amma mən istəyirdim, bunu hansısa formada ağdamlılara çatdırım, amma onlar da başa düşürlər ki, müharibə dövründə bunu edə bilməzdim. Burada beş müdafiə xətti var. Düşmən bizi buradan gözləyirdi. Biz imkan verə bilməzdik ki, düşmənin gözlədiyi yerdən hücuma keçək. Biz bu istiqamətdə kifayət qədər böyük hərbi birləşmə saxlamışdıq ki, düşmənin hərbi qüvvələri də burada qalsın, başqa yerə getməsin. Füzulini, Hadrutu, Xocavənd rayonunun böyük hissəsini və Şuşanı azad edəndən sonra təbii ki, biz artıq Ağdam şəhərinə istiqamət götürmüşdük və əmr verilmişdi ki, növbəti istiqamət Ağdamdır. Düşmən də bilir və artıq etiraf edir ki, əgər onlar torpaqlarımızın azad edilməsi ilə bağlı mənim şərtlərimi qəbul etməsəydilər, burada məhv olacaqdılar. Çünki biz Ağdama gəlirdik.

Müharibənin bütün sirlərini açmaq hələ ki, tezdir. Vaxt gələcək çox maraqlı məsələlər üzə çıxacaq. Ancaq bu gün tam rahat deyə bilərəm ki, Ağdam əməliyyatı planlaşdırılırdı. Biz Ağdamı onsuz da alacaqdıq. Amma itkilər olacaqdı, özü də böyük sayda. Ona görə Şuşanı və noyabrın 9-da 70-dən çox kəndimizi azad edəndən sonra düşmənin beli qırıldı, təslim oldu, ağ bayraq qaldırdı, mənim şərtlərimə əməl etdi və öz məğlubiyyətini etiraf etdi.

Mən, demək olar ki, müharibənin ilk günlərindən çoxsaylı müsahibələrimdə və xalqa müraciətlərimdə demişdim ki, - bütün bunları qaldırmaq olar, hər şey sənədləşdirilib, - bizə tarix versin. Dedim, Paşinyan, sən özün, sənin xarici işlər nazirin, yaxud müdafiə nazirin yox, hansılar ki, bu məğlubiyyətə görə işdən qovuldular, sən özün, Paşinyan, bizə tarix verməlisən, özün deməlisən və buna nail oldum.

Əgər mənim sözümə qulaq assaydı, indi belə rəzil durumda olmazdı. Tam qətiyyətlə deyə bilərəm, biz işğal olunmuş torpaqlarımızı onsuz da azad edəcəkdik. Ancaq düşmən hesab edirdi ki, ona kimsə kömək edəcək. Hesab edirdi ki, onun bütün havadarları gəlib onun yerinə bizimlə vuruşacaq. Səhv etdi, böyük səhv etdi. Füzuli, Cəbrayıl, Hadrut, Zəngilan, Qubadlı, Şuşa, Suqovuşan, Xocavənd rayonunun böyük hissəsi döyüş meydanında işğaldan azad olunandan sonra düşmən diz çökdü və bu gün diz üstədir. Biz düşmənin belini qırdıq, biz şanlı Qələbə qazandıq. Biz bütün dünyaya sübut etdik ki, onların əfsanələri, onların mifləri hamısı boş şeydir. On mindən çox fərari var Ermənistan ordusunda və daha da çox olacaqdı. Əgər biz Ağdama planlaşdırdığımız əməliyyatı həyata keçirsəydik, bax, burada minlərlə erməni hərbçisi ya fərari olacaqdı, ya da məhv olacaqdı. Biz göstərdik ki, döyüşkən xalq Azərbaycan xalqıdır. Biz göstərdik ki, heç vaxt bu işğalla barışmayacağıq. Açsınlar baxsınlar mənim çıxışlarıma, mən son 17 il ərzində bəlkə də min dəfə demişəm, biz bu işğalla barışmayacağıq. Hesab edirdilər ki, bizim torpaqlarımızı işğal altında əbədi saxlayacaqlar. Çünki bu qədər xərc qoyan, burada, Füzulidə, Cəbrayılda bu qədər istehkam quranlar onu da istəyirdilər. Cəbrayıl rayonunun Soltanlı kəndi uğrunda bir neçə gün şiddətli döyüşlər gedirdi. Orada elə istehkamlar qurmuşdular ki, bəlkə də heç dünyada belə istehkamlar olmayıb. Nə üçün? Çıxmaq istəmirdilər. Hesab edirdilər ki, orada əbədi oturacaqlar. Erməniləşdirmək istəyirdilər. Bax, bütün Ağdam şəhəri dağıdılıb. Oranı onlar 1990-cı illərdə dağıdıblar ki, əgər sülh müqaviləsi imzalansa, Azərbaycan xalqı gəlib burada yaşaya bilməsin. Hər tərəf minalanıb. Ən çox minalar məhz buradadır. Amma səhv etdilər.

davamı səh. 3

# Prezident İlham Əliyev: Biz bu Qələbəni birlik, əzm, iradə və güc hesabına əldə etdik

əvvəli səh. 2

Biz bütün bu illər ərzində bir amalla, bir arzu ilə yaşamışıq ki, bu torpaqlara qayıdaq və qayıtmışıq. Ermənistan ordusunu məhv etmişik. Ermənistan ordusu demək olar ki, yoxdur. Hərbi cinayətkarları məhv etmişik, onların törtöküntülərini məhv etmişik. Mən Füzuli şəhərində demişəm, bir daha demək istəyirəm, biz Koçaryan, Sarkisyan ordusunu məhv etmişik. Biz Koçaryana, Sarkisyana qarşı qüdrətimizi göstərmişik. Biz onları məğlub etmişik. Paşinyan kimdir, mən indi onun haqqında danışmaq istəmirəm, nə lazımsa demişəm. Koçaryan, Sarkisyan, siz diz çökdünüz bizim qabağımızda, siz buranı, işğal edilmiş bütün torpaqları bax, bu günə saldınız. Siz bu məscidi dağıtdınız. İkinci Qarabağ müharibəsi dövründə qaçıb gizləndilər. Döyüş bölgəsinə burunlarını da belə soxa bilmədilər. Bəs, haradadır sizin qəhrəmanlığınız? Dedim ki, çıxarın dəmir-dümürləri, onun qiyməti yoxdur. Qəhrəman ordenləri taxmısınız döşünüzə. Yalançı qəhrəmandırlar bunlar. Bax, mən burada durmuşam, dağıtdığınız məscidin önündə, dağıtdığınız Ağdam şəhərində, öz ordumla buraya gəlmişəm. Qalib kimi gəlmişəm. Siz isə öz miskin həyatınızın sonuna qədər məğlub edilmiş, qorxaq damğası ilə yaşayacaqsınız. Nə gizlənirsiniz orada siçan kimi?! Koçaryan, Sarkisyan, mən sizə deyirəm. Paşinyan heç kimdir. İndi onun dərdi, azarı hakimiyyətdə qalmaqdır. Buna görə də bütün müxalifəti tutdurur. Qərb də susur buna, susur, ağzına su alıb. Görmür ki, nələr baş verir orada?! Hərbi cinayətkarlar, Xocalı qatilləri, sizi məhv etmişik. Azərbaycan əsgəri, Azərbaycan zabiti sizi məhv edib. Əcəb də eləyib!

Bu gün Ağdam şəhərini dağılmış vəziyyətdə görmək çox ağrılıdır. Amma mən bir neçə il bundan əvvəl bu bölgədə olarkən, bizim səngərlərdə olarkən, o binanı binoklla görmüşəm. Bu hissləri sözlə ifadə etmək çətindir, mümkün deyil. Öz torpağımızda öz şəhərimizi, bax, o binanı binoklla uzaqdan görmək, buraya gələ bilməmək nə qədər ağrılı idi. Dəfələrlə təmas xəttində olarkən, səngərlərdə olarkən, fikirləşirdim ki, gün gələcək biz qayıdacağıq, biz öz ərazi bütövlüyümüzü bərpa edəcəyik.

Bu gün mən Ağdam məscidinə Məkkədən gətirdiyim "Qurani-Kərim"i bağışladım. Mən xoşbəxt adamam ki, dörd dəfə Məkkə ziyarətində olmuşam. Bir dəfə rəhmətlik atamla, üç dəfə isə Prezident kimi. Xoşbəxtəm ki, mən ailə üzvlərimlə bərabər müqəddəs Kəbənin içində dualar etmişəm. Hər bir insanın ürəyində nə varsa, mənim ürəyimdə də eyni duyğulardır. Etdiyim duaların arasında birinci duam torpaqlarımızın işğaldan azad edilməsi idi. Allahdan xahiş edirdim, mənə güc versin ki, biz torpaqları işğalçılardan azad edək, o xoşbəxtliyi bizə nəsib etsin, biz yenə də dədə-baba torpağımıza qayıdaq.

Bu gün burada, vandallar tərəfindən dağılmış məscidin önündə deyirəm ki, xoşbəxt adamam. Bir daha Allaha şükür edirəm ki, mənim dualarımı eşidib, bu gücü mənə verib. Biz gücümüzü səfərbər edərək bax, bu tarixi günləri yaşayırıq. Bu, həqiqətən də tarixi günlərdir. Bəlkə də çoxəsrlik Azərbaycan tarixində buna bənzər şərəfli və qürurlu günlər olmayıb. Biz bunu birliyimiz sayəsində qazanmışıq, gücümüz sayəsində qazanmışıq. Heç kim bizə kömək etməyib. Əksinə, ancaq maneçilik törədib. Gün gələcək bu barədə də ətraflı danışacağam.

Bu 44 gün ərzində bizə mənəvi və siyasi dəstək verən Türkiyə Cümhuriyyəti olub, mənim qardaşım Prezident Rəcəb Tayyib Ərdoğan olub və bir neçə digər müsəlman və qeyri-müsəlman ölkələrin rəhbərləri olub. Biz bu Qələbəni birlik, əzm, iradə və güc hesabına əldə etdik. Bu gün, müharibə başa çatandan sonra artıq Qərb dairələrindən bəzi Qərb liderləri məsələ qaldırırlar ki, bəs, Azərbaycanın nəzarətinə keçən azad edilmiş torpaqlarda xristian məbədləri necə olacaq? Həm mənimlə söhbət zamanı, həm rəsmi bəyanatlarda narahatlıq ifadə edirlər. Heç kim narahat olmasın, xüsusilə Qərb dövlətlərinin liderləri, hansılar ki, islamofob hissləri alovlandırırlar. Hansılar ki, İslam müqəddəslərinin təhqirlərinə göz yumurlar və hətta onları təhqir edənlərə bəraət qazandırırlar. Onların haqqı yoxdur bu barədə danışmağa, bu, birincisi. İkincisi, bizim ərazimizdə olan bütün məbədlər tarixi sərvətimizdir. Azərbaycanda hər il Bakı Humanitar Forumu, ya da ki, Mədəniyyətlərarası Dialoq Forumu keçirilir. Azərbaycanda dünya dini liderlərinin Zirvə görüşləri keçirilib. Baxın, görün, nələr deyilib bizim haqqımızda. İslam Əməkdaşlıq Təşkilatı Azərbaycanda İslam dininə olan münasibəti örnək kimi göstərir. Rusiya Pravoslav Kilsəsinin patriarxı Kiril Bakıda olarkən Azərbaycanda bu sahədə görülmüş işlərə yüksək qiymət verib, Pravoslav kilsələrində olub. Roma Papası Fransisk Bakıda olarkən rəsmi çıxışında Azərbaycanda tolerantlıq, dini dözümlülük, multikulturalizm haqqında danışıb. Kim bizə irad tuta bilər? Məscidləri bağlayan? Yaxud da ki, müsəlman məscidlərinə öldürülmüş donuzların başlarını atan bizə dərs deyəcək, narahatlıq ifadə edəcək? Bizə heç bir narahatlıq ifadə etmək lazım deyil. Bizim bütün tarixi abidələrimiz dövlət tərəfindən qorunur. Mənim göstərişimlə və dövlət vəsaiti hesabına hazırda iki pravoslav kilsəsi təmir edilir, üçüncü kilsə isə təmir olunub. İnzibati bina tikilir. Müharibə dövründə udi qardaşlarımızın kilsəsi Heydər Əliyev Fondu tərəfindən təmir olunaraq istifadəyə verilib. Bizim Qafqaz Albaniyası kilsələri milli sərvətimizdir. Gürcü kilsələrimiz, erməni kilsəsi. Vəhşi düşmən bax, bu məsciddə inək saxlayıb, donuz saxlayıb. Bu şəkillər var internetdə. Azad edilmiş Zəngilan məscidində, Cəbrayıl məscidində donuz saxlayıb.

Biz UNESCO ilə çox sıx əməkdaşlıq edirik. Amma gəlib xristian məbədlərinə baş çəkmək istəsə, buraya gəlsin. Gəlsin və desin vəhşi erməni neyləyib burada. Bir də ki, bir neçə il bundan əvvəl Minsk qrupunun həmsədr ölkələrinin səfirləri bu məsciddə, burada olublar. Onlar iki dəfə faktaraşdırıcı missiyalar keçiriblər və mənə deyiblər ki, Ağdam məscidində olublar. Niyə məsələ qaldırmayıblar? Niyə bu, bəzi Qərb liderlərində narahatlıq yaratmayıb? Deməli, müsəlman məscidlərini təhqir etmək olar, inək, donuz saxlamaq olar, dağıtmaq olar. Belədirsə, belə də desinlər və getsinlər öz ölkələrində problemlərlə məşğul olsunlar, bizim işimizə burunlarını soxmasınlar. Heç kim bizim işimizə qarışmasın. Biz özümüz gəlmişik buraya. Bütün o ölkələrin səylərinə rəğmən gəlmişik, bütün təxribatlara rəğmən gəlmişik, qan tökə-tökə gəlmişik və durmuşuq bizim torpağımızda. Hərə getsin öz işi ilə məşğul olsun. Bizim işimizə qarışmaq istəyənin cavabını vermişik və verəcəyik.



Bu gün tarixi bir gündür. Biz şanlı Qələbəmizi qeyd edirik. Dağılmış Ağdam şəhəri erməni vəhşiliyinin şahididir. Biz Ağdam şəhərini bərpa edəcəyik, bütün kəndləri bərpa edəcəyik. Heç kimdə bu haqda şübhə olmasın. Bu, böyük iş olacaqdır. Əlbəttə ki, böyük zəhmət tələb edəcək. Amma necə ki, biz 44 gün ərzində birlik göstərmişik, əminəm ki, azad edilmiş torpaqlarımızın bərpası işində də birlik, əzmkarlıq göstərəcəyik. Bütün şəhərlərimizi bərpa edəcəyik, daha da gözəl şəhərlər olacaqdır. Şəhərlərimizdə qalan tarixi abidələri bərpa edəcəyik və bir daha gücümüzü göstərəcəyik.

Biz Qələbəmizi dəmir yumruq hesabına, düşməni qova-qova qazanmışıq və indi durmuşuq öz torpağımızda.

Eşq olsun Azərbaycan xalqına! Eşq olsun Azərbaycan əsgərinə, Azərbaycan zabitinə! Ağdam bizimdir! Qarabağ Azərbaycandır!

* * *

Ağdamdan qayıdarkən Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva dağıdılmış şəhəri avtomobildən seyr ediblər.

**Birinci xanım Mehriban Əliyeva:** Bir dənə də dağıdılmamış bina yoxdur.

**Prezident İlham Əliyev:** Qaldırdığım bayraq. Eşq olsun!

# "Müasir dünyanın problemləri: nifrətə çağırış, terror, ekstremizm, islamofobiya və Ermənistanın Azərbaycana qarşı təcavüzü"

Noyabrın 10-da Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) təşkilatçılığı ilə "Müasir dünyanın problemləri: nifrətə çağırış, terror, ekstremizm, islamofobiya və Ermənistanın Azərbaycana qarşı təcavüzü" mövzusunda beynəlxalq konfrans keçirilib.

Onlayn formatda baş tutan konfransda İslam aləminin, o cümlədən Yaxın Şərq, Afrika, Avropa və Asiyanın nüfuzlu siyasi-ictimai xadimləri və dini rəhbərləri iştirak ediblər.

Əvvəlcə Qurani-Kərimdən ayələr oxunub.

Tədbirin açılış mərasimində çıxış edən QMİ sədri Şeyxülislam Allahşükür Paşazadə konfrans iştirakçılarına Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin salamlarını çatdırıb. A.Paşazadə Prezident İlham Əliyevi, Birinci vitse-prezident Mehriban xanım Əliyevanı və Azərbaycan xalqını Qələbə münasibətilə təbrik edib.

QMİ sədri Azərbaycanın dünya birliyi tərəfindən tanınan ərazi bütövlüyünü bərpa etmək, öz əzəli torpaqlarını erməni işğalından azad etmək uğrunda haqq mübarizəsinə verdikləri siyasi-mənəvi dəstəyə görə İƏT-ə, Türkiyə, İran, Pakistan və Əfqanıstanın dövlətlərinə və xalqlarına, İslam aləminin tanınmış şəxsiyyətlərinə, nüfuzlu dini liderlərinə, ictimai xadimlərinə dəstək bəyanatları və həmrəylik məktubları üçün dərin minnətdarlığını ifadə edib.

A.Paşazadə Ermənistanın Gəncə, Bərdə, Tərtər, o cümlədən digər şəhər və yaşayış məntəqələrimizdə dinc əhaliyə qarşı terroru, işğal olunmuş ərazilərimizdə erməni ekstremistləri tərəfindən yüzlərlə məscid, məbəd və kilsənin, minlərlə məzarlığın dağıdılması, ümumislam əhəmiyyətli irs nümunələrinin mənşəyinin saxtalaşdırılması və dini məbədlərin qriqoryanlaşdırılması, hətta əsarətdə qalan məscidlərimizin tövləyə çevrilərək orada İslamda haram buyurulan heyvanların saxlanılması kimi təhqir əməlləri barədə konfrans iştirakçılarına məlumat verib. O, erməni kilsəsinin Azərbaycanın işğal olunmuş ərazilərində ölənədək vuruşmağa çağırışlarını, ölümə, işğala, təcavüzə xeyir-dua verməsini dini mərkəzə yaraşmayan və Xristianlığın hökmlərinə zidd olan nifrətə çağırış nümunəsi kimi qiymətləndirib.

Şeyxülislam bütün İslam ölkələrinə müraciət edərək Ermənistana Azərbaycana qarşı işğalçılıq siyasətinə dəstək ola biləcək hər hansı siyasi, mənəvi, iqtisadi, hərbi yardımlar göstərməməyə, o cümlədən öz ərazilərindən həmin məqsədlə təyinatlı daşımalara və muzdluların hərəkətinə yol verməməyə çağırıb.

Azərbaycanda Qələbənin və Dövlət Bayrağı Gününün qeyd olunduğunu bildirən QMİ sədri bu günlər işğaldan azad olunmuş torpaqlarımızda, Qarabağın qədim şəhəri Şuşada Azərbaycanın üçrəngli Dövlət Bayrağının dalğalanmasını və azan səsinin ucalmasını böyük nemət kimi dəyərləndirib, bu münasibətlə xalqımızı təbrik edib. Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyətli siyasəti sayəsində bütün torpaqlarımızın azad olunacağına, orada məscidlərimizi və ibadətlərimizi bərpa edəcəyimizə əminliyini ifadə edib.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı çıxışında Ermənistanın Azərbaycana qarşı son hərbi təcavüzünün reallıqları barədə konfrans iştirakçılarını məlumatlandırıb. Ermənistanın xristian təəssübkeşliyinə nail olmaq məqsədilə bu müharibəyə din xadimlərini cəlb etdiyini, münaqişəni dini müstəvidə təqdim etməyə cəhdlər göstərdiyini vurğulayan M.Qurbanlı qeyd edib ki, torpağı işğala məruz qalan hər bir xalq bu torpağın hansı nemət olduğunu bilir: "İslam Əməkdaşlıq Təşkilatı 51 ildir mövcuddur və İslam dünyasını birləşdirmək üçün çox böyük işlər görüb. İƏT Ermənistanın Azərbaycana təcavüzü məsələsində hər zaman yanımızda olub. Onun Azərbaycanın ərazi bütövlüyü ilə bağlı qəbul etdiyi qərar və qətnamələr hüquqi baza rolunu oynayıb. İƏT sonuncu mücadiləmizdə də dəstəyini əsirgəmədi, eyni zamanda Türkiyə, Pakistan, İranın dəstəyini qeyd etmək istəyirəm. Ümumilikdə bütün İslam ölkələri bizə dəstək göstərib. 30 il torpaqlarımızı sülh yolu ilə azad etməyə çalışdıq. Amma Ermənistan bu çağırışlara əməl etmədi, nəticə də onun üçün acınacaqlı oldu", - deyən M.Qurbanlı Qoşulmama Hərəkatının da dəstəyini qeyd edib.

Konfransda İƏT-in Baş katibi Yusif bin Əhməd Əl-Useyminin xüsusi nümayəndəsi Məğrub Səlim Bat, Türkiyə Cümhuriyyətinin Diyanət İşləri başqanı Ali Erbaş, İranın Mədəniyyət və İslami Əlaqələr Təşkilatının sədri Əbuzər İbrahimi Torkaman, Beynəlxalq İslam Üləmaları Birliyinin Baş katibi Əli Muhyiddin Əl-Qaradaği, Misirin Parlament sədrinin birinci müavini, Şəriflər Cəmiyyətinin rəhbəri Əl-Seyyid Mahmud Əl-Şərif, ISESCO-nun Baş direktoru Salem bin Məhəmməd əl-Maliki, Pakistan Müsəlman İnstitutunun direktoru Sahibzadə Sultan Əhməd Əli, Əfqanıstan İslam Respublikasının Həcc, İrşad və Vəqflər naziri Məhəmməd Qasem Həlimi, Özbəkistan Müsəlmanları İdarəsinin sədri Usmonxon Alimov, İƏT nəzdindəki IRCICA-nın Baş direktoru Halit Eren, Seneqal Respublikası Prezidentinin Dini işlər üzrə müşaviri Şeyx Məhəmməd Mənsur Nias, Ukrayna Müsəlmanları Ruhani İdarəsinin sədri Əhməd Təmim çıxış edərək Şuşanın işğaldan azad olunması və Qələbə münasibətilə Azərbaycan xalqına təbriklərini çatdırıb, ölkəmizin öz ərazi bütövlüyünü bərpa etmək hüququnu dəstəklədiklərini bildiriblər. Beynəlxalq konfransın gündəliyinə dair məsələləri müzakirə edən konfrans iştirakçıları öz çıxışlarında Azərbaycanın işğal altındakı torpaqlarında erməni vandalizminə uğramış ümumislam əhəmiyyətli dini-mənəvi irsin qorunmasının vacibliyinə də toxunublar. Həmçinin təcavüz nəticəsində dinc insanların qətlə yetirilməsi hallarını qətiyyətlə qınayıblar.

Konfransda həmçinin İtaliya Müsəlman İcmasının prezidenti, Milan məscidinin imamı Yəhya Pallaviçini, Keniya Müsəlmanları Ali Şurasının sədri Yusuf Abdulrahman Nzibo, Bolqarıstanın müftisi Mustafa Alış Hacı, Monteneqronun müftisi Rifat Feyzic, Macarıstan Müsəlman İcmasının sədri Zoltbn Rubert Bolek, Mərakeş Sufi və Estetik Araşdırmalar üzrə Beynəlxalq Akademik Mərkəzinin prezidenti Əziz Əl-Kobaiti İdrisi, Qırğızıstan Müsəlmanları İdarəsinin sədri Maksatbek Toktomuşev, Qazaxıstandakı Nursultan Nazarbayev Dinlərarası və Mədəniyyətlərarası Dialoqun İnkişafı Mərkəzinin İdarə Heyətinin sədri Altay Abibullayev, Tanzaniya Milli Müsəlman Şurasının sədri Xamis Səid Mataka və digərlərinin məruzələri dinlənilib. Onlar öz çıxışlarında beynəlxalq hüquqa əsasən Azərbaycanın öz suveren haqlarını bərpa etmək, öz təhlükəsizliyi və ərazi bütövlüyünün toxunulmazlığı uğrunda mübarizəsini dəstəklədiklərini, bu haqlı savaşın tezliklə qalibiyyətlə başa çatması üçün dualar etdiklərini xüsusi vurğulayıblar.

Sonda konfrans iştirakçıları Azərbaycan Prezidenti İlham Əliyevin ünvanına təbrik müraciəti və yekun sənəd - Bəyanat qəbul ediblər.



***"Müasir dünyanın problemləri: nifrətə çağırış, terror, ekstremizm, islamofobiya və Ermənistanın Azərbaycana qarşı təcavüzü" adlı onlayn Beynəlxalq Konfransın iştirakçılarından***

davamı səh. 5

# "Müasir dünyanın problemləri: nifrətə çağırış, terror, ekstremizm, islamofobiya və Ermənistanın Azərbaycana qarşı təcavüzü"

əvvəli səh. 4

Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Möhtərəm cənab Prezident!

Qafqaz Müsəlmanları İdarəsinin təşkilatçılığı ilə 2020-ci il 10 noyabr tarixində keçirilmiş "Müasir dünyanın problemləri: nifrətə çağırış, terror, ekstremizm, islamofobiya və Ermənistanın Azərbaycana qarşı təcavüzü" mövzusunda onlayn Beynəlxalq Konfransın iştirakçıları olaraq Zati-alinizi üçqat bayram sevinci - Şuşanın işğaldan azad olunması, Azərbaycanın Dövlət Bayrağı Günü və Qarabağ savaşının böyük qalibiyyətlə zəfəri münasibətilə ürəkdən təbrik etməkdən şərəf duyuruq. Azərbaycan Respublikasının üçrəngli bayrağının Azərbaycanın işğaldan azad olunmuş ərazilərində dalğalanması bütün müsəlman aləmi üçün qürur və fəxarət mənbəyidir.

İslam Əməkdaşlıq Təşkilatı (İƏT) və ona üzv dövlətlər hər zaman Azərbaycanın haqlı mübarizəsinə dəstək ifadə etmişlər və bu münasibət İƏT-in qərar və bəyanatlarında öz əksini tapmışdır. İslam dünyasının ayrılmaz parçası olan müstəqil Azərbaycanın üçrəngli dövlət bayrağının Azərbaycan torpağı olan bu ərazilərdə dalğalanması tarixi ədalət və istiqrarın bərpası anlamını verir və Ümmət olaraq bizi hədsiz sevindirir. Əminik ki, Qarabağın bütün məscidlərindən, Zati-alinizin bəyan etdiyi kimi, uzun illər sonra yenidən azan səsləri ucalacaqdır, inşallah!

Zati-aliləri, Azərbaycanın dövlət müstəqilliyinin möhkəmləndirilməsi, iqtisadi qüdrətinin artması istiqamətində misilsiz səyləriniz, milli-mədəni irsin dirçəlişinə qayğı və himayəniz müdrik siyasətin nümunəsi kimi beynəlxalq aləmdə yüksək dəyərləndirilir. Siz sülhsevər siyasət yürüdərək, uzun illər ərzində Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin ədalətli sülh yolu ilə, beynəlxalq hüquqa və beynəlxalq təşkilatların qərar və səylərinə istinadən həllində ardıcıllıq nümayiş etdirmisiniz. Zati-alinizin bu günlər mətin, nüfuzlu sərkərdə, öz xalqının dərin məhəbbət və etimadını qazanmış, ordusunun qüdrətinə güvənən yenilməz dövlət lideri olaraq dünyanın demək olar ki, bütün aparıcı media qurumlarında Azərbaycan həqiqətlərini, Qarabağ reallıqlarını inam, qətiyyət və siyasi mədəniyyət nümunəsi ilə dünya ictimaiyyətinə çatdırması qlobal miqyaslı dövlət xadimi statusunuzun bariz nümunəsidir.

Möhtərəm cənab Prezident, Siz illərdir ki, multikulturalizm və İslam həmrəyliyi kimi insan həmrəyliyinə xidmət edən qlobal ideyaların, dünyada sülh və anlaşmaya nail olunması yönündə mədəniyyətlər və sivilizasiyalararası dialoq zəminində beynəlxalq əməkdaşlığa dair forumların, Dünya Dini Liderlərinin sammitlərinin təşəbbüskarı, habelə məşhur "Bakı Prosesi"nin müəllifi kimi tanınırsınız. Dünya ictimaiyyəti, o cümlədən, İslam aləmi bunu yüksək dəyərləndirir. Beynəlxalq konfransımızda iştirak edənlərin əksəriyyəti zamanında dünyanın ən böyük dövlətinin siyasi zirvəsində yer alan nüfuzlu müsəlman, Azərbaycanın böyük oğlu Heydər Əliyevi yaxşı xatırlayır. Müsəlman dünyası olaraq biz bu böyük şəxsiyyətlə qürur duyduğumuz kimi, Heydər Əliyev siyasi məktəbinin ardıcılı olan qətiyyətli siyasi lider, ata vəsiyyətini yerinə yetirərək ruhunu şad edən, İslam torpağının – Qarabağın fatehi olan Zati-alinizin qalibiyyətli zəfəri ilə fəxr edirik.

Azərbaycanın əzəli torpaqları olan Qarabağın və İslam dünyasının mədəniyyət beşiyi Şuşanın işğaldan azad olunması münasibətilə bir daha Zati-alinizi və Birinci vitse-prezident Mehriban xanım Əliyevanı, bütün Azərbaycan xalqını səmimi qəlbdən təbrik edirik. Bu, öz torpaqlarına, milli-dini dəyərlərinə, ümumislam irsinə sahib çıxan müzəffər xalqın Uca Allahın xeyir-duası ilə, rəşadətli Ordusunun gücünə arxalanaraq tarixi ədaləti bərpa etməsidir.

Zati-aliləri, haqq işi uğrunda - dövlətin ərazi bütövlüyünün bərpasında Ali Baş Komandan olaraq qazandığınız qələbələr dünyada beynəlxalq hüququn təminінə xidmət edən nümunəvi tarixi missiyadır. Bu qələbənin əldə edilməsində şəhid olmuş qəhrəman Azərbaycan oğullarına Uca Allahdan rəhmət diləyir, yaralılara şəfa arzulayırıq. Zati-alinizə Azərbaycan xalqı və dövləti naminə fəaliyyətinizdə, ərazi bütövlüyünün bərpası istiqamətində yeni zəfər və qələbələr, dünya miqyasında dəyər kəsb edən səy və əməllərinizə Allah-Təaladan uğurlar diləyirik.

Uca Yaradan hər zaman yardımçınız olsun, Öz Lütf və Mərhəmətini hər zaman Azərbaycan xalqı və dövləti üzərində bərqərar etsin! Amin.

Dərin hörmətlə,

2020-ci il noyabrın 10-da keçirilmiş "Müasir dünyanın problemləri: nifrətə çağırış, terror, ekstremizm, islamofobiya və Ermənistanın Azərbaycana qarşı təcavüzü" mövzusunda onlayn Beynəlxalq Konfransın iştirakçıları:

***Şeyxülislam Allahşükür Paşazadə*** – Qafqaz Müsəlmanları İdarəsinin sədri;

***Mərğub Səlim Bat*** – İƏT Baş katibi Y.Ə.Əl-Useyminin xüsusi nümayəndəsi;

***Ali Erbaş*** – Türkiyə Cümhuriyyətinin Diyanət İşləri Başqanı;

***Əbuzər İbrahimi Torkaman*** – İran İslam Respublikasının Mədəniyyət və İslami Əlaqələr Təşkilatının sədri;

***Əli Muhyiddin Əl-Qaradaği*** – Beynəlxalq İslam Üləmaları Birliyinin Baş katibi;

***Mübariz Qurbanlı*** – Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri;

***Əl-Seyyid Mahmud Əl-Şərif*** – Misir Ərəb Respublikası Parlamenti sədrinin birinci müavini, Şəriflər Cəmiyyətinin rəhbəri;

***Salim Əl-Malik*** – İƏT-in İslam Aləmi Təhsil, Elm və Mədəniyyət Təşkilatının (ISESCO) Baş direktoru;

***Usmanxon Alimov*** – Özbəkistan Müsəlmanları İdarəsinin sədri, Müfti;

***Məhəmməd Qasem Həlimi*** – Əfqanıstan İslam Respublikasının Həcc, İrşad və Vəqflər naziri;

***Halit Eren*** – İƏT-in İslam Tarixi, İncəsənəti və Mədəniyyəti Araşdırmaları Mərkəzinin (IRCICA) Baş direktoru;

***Şeyx Məhəmməd Mənsur Nias*** – Seneqal Respublikası Prezidentinin Dini işlər üzrə müşaviri;

***Əhməd Təmim*** – Ukrayna Müsəlmanları Ruhani İdarəsinin sədri, Müfti;

***Sahibzadə Sultan Əhməd Əli*** – Pakistan Müsəlman İnstitutunun direktoru;

***Yəhya Pallaviçini*** – İtaliya Müsəlman İcmasının prezidenti, Milan məscidinin imamı;

***Yusuf Abdulrahman Nzibo*** – Keniya Fatima bint Xalfan Fondunun təsisçi sədri, Nayrobi məscidinin sədri;

***Mustafa Alış Hacı*** – Bolqarıstanın müftisi;

***Rifat Feyzic*** – Monteneqronun müftisi;

***Zoltbn Rubert Bolek*** – Macarıstan Müsəlman İcmasının sədri;

***Əziz Əl-Kobaiti İdrisi*** – Mərakeş Sufi və Estetik Araşdırmalar üzrə Beynəlxalq Akademik Mərkəzinin prezidenti;

***Altay Abibullayev*** – Nursultan Nazarbayev adına Dinlərarası və Mədəniyyətlərarası Dialoqun İnkişafı Mərkəzinin İdarə Heyətinin sədri;

***Xamis Səid Mataka*** – Tanzaniya Milli Müsəlman Şurasının sədri;

***Maksatbek Toktomuşev*** – Qırğızıstan Müsəlmanları İdarəsinin sədri, Müfti;

***Sahib Məmmədov*** – QMİ-nin Naxçıvan bölgəsi üzrə qazısı;

***Bünyamin Çil*** – QMİ-nin Türkiyədəki səlahiyyətli nümayəndəsi;

***Əli Əliyev*** – QMİ-nin Gürcüstandakı səlahiyyətli nümayəndəsi;

***Şaqabitdin Kerimov*** – QMİ-nin Şimali Qafqaz və Dağıstanda səlahiyyətli nümayəndəsi;

***Şamil Rəsulov*** – QMİ-nin İran İslam Respublikasındakı səlahiyyətli nümayəndəsi;

***Seymur Nəsirov*** – Misirdəki Azərbaycan Diaspora Təşkilatları Birliyinin sədri.

# Komitə sədri "Din və etiqad azadlığının irəlilədilməsi üzrə üçüncü nazirlər konfransı"nda çıxış edib

ABŞ hökumətinin təşəbbüsü və Polşa hökumətinin təşkilatçılığı ilə 16-17 noyabr 2020-ci il tarixlərində videokonfrans formatında "Din və etiqad azadlığının irəlilədilməsi üzrə üçüncü nazirlər konfransı" keçirilib. Konfransda nüfuzlu beynəlxalq təşkilatların nümayəndələri də daxil olmaqla 60-a yaxın dövlətin xarici işlər nazirləri və müavinləri, din azadlığı üzrə xüsusi səfirlər iştirak ediblər.

Cari ilin iyul ayında Polşanın paytaxtı Varşava şəhərində keçirilməsi planlaşdırılan üçüncü nazirlər konfransı dünyada yayılan pandemiya səbəbindən dəfələrlə təxirə salınmış və sonda tədbirin 16-17 noyabr tarixlərində virtual olaraq keçirilməsi qərara alınmışdı. Tədbirdə ölkəmizi Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı təmsil edib.

Videokonfransı Polşa Respublikasının Xarici İşlər Naziri Zbiqniev Rau açaraq din və etiqad azadlığının fundamental insan hüququ olduğunu vurğulayıb, dünyada bir çox insanın, xüsusən də dini azlıqlara mənsub olanların bu təməl haqqının pozulması ilə qarşılaşdıqlarını və COVID-19 pandemiyası dövründə bu problemin daha da artdığını bildirib. Nazir, həmçinin konfrans iştirakçılarını din və etiqad azadlığını qorumaq və təşviq etmək üçün səylərini artırmağa çağırıb.

Videokonfransın açılış mərasimində çıxış edən ABŞ Dövlət katibi Mayk Pompeo konfransa ev sahibliyi etdiyinə görə Polşa hökumətinə minnətdarlığını bildirib. Bu qəbildən olan tədbirlərin din və etiqad azadlığının təmin edilməsi sahəsində səylərin davam etdiriləcəyinin göstəricisi olduğunu qeyd edib.

Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı videokonfransda çıxış edərək ölkə Prezidenti İlham Əliyevin rəhbərliyi ilə dinlərarası dialoqun mərkəzinə çevrilmiş Azərbaycanın müasir dövrdə həyata keçirdiyi dünyəvilik, tolerantlıq və multikultural dəyərlərə söykənən dövlət-din modeli və siyasətindən bəhs edib, dövlət səviyyəsində dini konfessiyalara və icmalara göstərilən diqqət və qayğıdan danışıb.

Ermənistanın Azərbaycana qarşı təcavüzünə toxunan Komitə sədri Dağlıq Qarabağ bölgəsi və ətraf 7 rayonun işğalı zamanı baş vermiş hadisələri - azərbaycanlıların öz yurdlarından qovulması, qətl edilməsi, tarixi dini-mədəni abidələrimizin, yaşayış məntəqələrinin ermənilər tərəfindən dağıdılması, məscidlərimizin tövləyə çevrilməsi, donuz saxlanılmaqla təhqir edilməsi, o cümlədən tarixi Qafqaz Albaniyasına məxsus kilsələrin erməniləşdirilməyə məruz qalması faktlarını vurğulayıb.

M.Qurbanlı cari il sentyabr ayının 27-dən noyabr ayının 10-dək Ermənistan tərəfinin başladığı hərbi hücumlar nəticəsində Azərbaycanın münaqişə zonasına aid olmayan yaşayış məntəqələrinin raket zərbələrinə məruz qalması zamanı ümumilikdə 100-ə yaxın mülki şəxsin qətlə yetirilməsini də qeyd etdi.

davamı səh. 6

# Komitə sədri “Din və etiqad azadlığının irəlilədilməsi üzrə üçüncü nazirlər konfransı”nda çıxış edib

əvvəli səh. 5

O, məruzəsində Azərbaycanın həyata keçirdiyi uğurlu əks-hücum əməliyyatları nəticəsində işğalçı Ermənistanın ağır məğlubiyyətə uğradıldığını, 30 ilə yaxın müddətdə düşmən tapdağında olan ərazilərimizin azad edildiyini və həmin ərazilərdə quruculuq işləri aparılacağını, bütün tarixi dini abidələrin bərpa ediləcəyini bildirib.

Həmçinin düşmənin öz təcavüzünə dini don geyindirmə cəhdini də ifşa edən Dövlət Komitəsinin sədri ölkəmizdə müsəlman, xristian, yəhudi və s. dinlərin nümayəndələri kimi minlərlə erməninin də sərbəst yaşadığını, Bakının mərkəzində erməni apostol kilsəsinin dövlət tərəfindən qorunduğunu iştirakçıların nəzərinə çatdırıb.



Çıxışının yekununda M.Qurbanlı müasir günümüzdə insanlar arasında vəhdət və harmoniyanın yaradılmasını, dini liderlər tərəfindən ekstremizm, terrorizm və separatizmin tənqidinə yönəlik çağırışların edilməsini dinlərin insanlara verəcəyi əsas töhfə kimi qiymətləndirib.

Nazirlər konfransının əksər iştirakçıları məruzələrində əsasən dövlətləri tərəfindən aparılan din və etiqad azadlığı sahəsindəki uğurlu siyasətdən bəhs edib, həmçinin bir çox məruzəçilər ayrı-ayrı ölkələrdə, xüsusən də Avropa ölkələrində dini zəmində baş vermiş terror hadisələrini vurğulamaqla dünyadakı din və etiqad azadlığının hazırkı vəziyyətindən narahatlıqlarını dilə gətiriblər.

Nazirlər konfransının gedişində din və etiqad azadlığının qorunması sahəsində beynəlxalq əməkdaşlığın gücləndirilməsi məqsədilə iştirakçılar tərəfindən münasibət bildirilməsi üçün səkkiz bəyanat irəli sürülüb. Həmin bəyanatlarda dinlərarası dialoqların irəlilədilməsi, COVID-19 pandemiyası dövründə din və etiqad azadlığının qorunması, eləcə də dininə və inancına görə zülmə məruz qalan azlıqların qorunması, din xadimlərinin sülh quruculuğuna verdiyi töhfə, Dayanıqlı İnkişaf Məqsədləri ilə din azadlığı arasındakı əlaqələr, din azadlığı sahəsində savadlılığın rolu, texnologiyaların istifadəsi barədə məsələlər öz əksini tapıb. Din və etiqad azadlığının təmin edildiyi, dini azlıqların hüquqlarının qorunduğu və dinlərarası dialoqun hökm sürdüyü inklüziv cəmiyyətin təşviqatçısı olan dövlət kimi Azərbaycan tərəfi də adıçəkilən bəyanatlara qoşulub.

# “Böyük qələbədən quruculuğa: başlıca vəzifələrimiz”

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi (AQUPDK), Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının (QHT Şurası) birgə təşkilatçılığı ilə 13 noyabr 2020-ci il tarixində “Böyük qələbədən quruculuğa: başlıca vəzifələrimiz” mövzusunda videokonfrans keçirilib. Konfransda AQUPDK, DQİDK və QHT Şurasının əməkdaşları, həmçinin müxtəlif QHT nümayəndələri iştirak ediblər.

Tədbir iştirakçılarını salamlayan AQUPDK sədri Bahar Muradova Konfransın işinə uğurlar arzulayıb. Xalq, dövlət və region üçün əlamətdar olan bu günlər münasibətilə hər kəsi təbrik edən B.Muradova qələbənin Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu və Ali Baş Komandan İlham Əliyevin uğurla davam etdirdiyi siyasətin nəticəsində yaşandığını qeyd edib. Komitə sədri 2016-cı ilin 4 günlük Aprel döyüşləri, bu ilin Tovuz hadisələri nəticəsində Azərbaycanın artıq təxribatlara, təcavüzə dözməyəcəyini qətiyyətlə həm Ermənistan rəhbərliyinə, həm də dünya ictimaiyyətinə bəyan etdiyini vurğulayıb. 44 gün davam edən İkinci Qarabağ müharibəsinin Azərbaycanın şanlı qələbəsi ilə öz məntiqi yekununa çatması, torpaqlarımızın Ermənistan işğalından azad olunmasını qeyd edərək, Azərbaycanın bu müharibədən qalib, yenilməz, monolit şəkildə çıxdığını və bu birliyin gücünü dinc quruculuğa yönəltməli, müharibənin ağır nəticələrinin aradan qaldırılması işinə fəal şəkildə qoşulmalı olduğumuzu bildirib.

Qələbədən sonrakı dönəmdə həyata keçiriləcək quruculuq hədəflərinə toxunan B.Muradova bildirib ki, bu istiqamətlərdə müvafiq dövlət qurumları, qeyri-hökumət təşkilatları ilə yaxından əməkdaşlıq xüsusi əhəmiyyət daşıyır. Münaqişədən zərər çəkən ailələrin, psixoloji sarsıntı keçirmiş qadın və uşaqlarımızın problemlərinə diqqət çəkən Komitə sədri sosial-psixoloji işin miqyasının həddən artıq genişləndiyini nəzərə alaraq qeyri-hökumət təşkilatlarının yardımı ilə qısa müddətdə bu sahədə fəaliyyətə yönəlik layihələrin keçirilməsinin vacibliyini vurğulayıb. Eyni zamanda, medianın imkanlarından düzgün və səmərəli istifadənin önəmindən danışan B.Muradova mətbuatda və sosial mediada hadisələrin düzgün işıqlandırılması, ictimai rəyin formalaşdırılması baxımından bu sahədə layihələrin keçirilməsini diqqətə çatdırıb. Çıxışının sonunda Komitə sədri tədbirdə iştirak edən dövlət və vətəndaş cəmiyyəti qurumlarının bütün nümayəndələrini qeyd olunan sahələrdə birgə, fəal əməkdaşlığa dəvət edib.




DQİDK-nın sədri Mübariz Qurbanlı Ali Baş Komandanın rəhbərliyi ilə qazanılan böyük qələbədən danışaraq, 2021-ci ildə dövlət qurumları və vətəndaş cəmiyyəti qarşısında yeni vəzifələrin dayandığını, yeni proqram və layihələrin həyata keçirilməli olduğunu vurğulayıb. Eyni zamanda, işğaldan azad olunmuş ərazilərin bərpası və inkişaf etdirilməsi ilə bağlı geniş proqramlar həyata keçiriləcəyini diqqətə çatdıran sədr DQİDK və Mənəvi Dəyərlər Fondu olaraq milli-mənəvi dəyərlər, mənəviyyatla bağlı layihələrdə iştirak edəcəklərini bildirib. M.Qurbanlı AQUPDK ilə ortaq mövzular üzrə illərə dayanan əməkdaşlıq təcrübəsindən danışaraq, quruculuq dönəmində də bu əməkdaşlığın uğurla davam etdiriləcəyinə inamını ifadə edib. Çıxışının davamında 2021-ci ildə Vətən Müharibəsi qəhrəmanlarının xalqımıza tanıdılması üçün şəhidlərimiz və qazilərimizlə bağlı qısametrajlı filmlərin çəkilməsinin önəmini vurğulayan sədr bu və qeyd edilən bütün mövzularda QHT-lərlə əməkdaşlıq edərək, yeni layihələr həyata keçirməyə hazır olduqlarını bildirib.

QHT Şurasının sədri Azay Quliyev qələbə münasibətilə təbriklərini səsləndirərək hər bir azərbaycanlının tarixi və qürurverici günlər yaşadığını qeyd edib. A.Quliyev 2020-ci ilin ən qətiyyətli siyasətçisi, böyük dövlət xadimi və dövlət başçısı kimi cənab İlham Əliyevin, ən döyüşkən və peşəkar ordu kimi Azərbaycan ordusunun, ən qəhrəman və mətin xalqı kimi Azərbaycan xalqının tarixə yazıldığını diqqətə çatdırıb. Xalqımızın bu 44 günlük müharibədə Prezidentimizin ətrafında bir yumruq kimi birləşdiyini qeyd edən A.Quliyev bundan sonra qarşımızda duran əsas məsələlər kimi bu birliyin sona qədər qorunub saxlanılmasının vacibliyini bildirib.

Daha sonra QHT rəhbərləri çıxış edərək qeyd olunan məsələlərlə bağlı fikir və təkliflərini bölüşüblər. Müzakirələr zamanı münaqişədən əziyyət çəkən insanlara sosial, psixoloji istiqamətlərdə dəstəyin göstərilməsi, şəhidlərimizin tanıdılması məqsəsilə onların qəhrəmanlıqlarına həsr edilmiş sənədli filmlərin çəkilməsi, müsabiqələrin təşkil olunması və digər fəaliyyətlərin həyata keçirilməsi, eyni zamanda Ermənistanın törətdiyi müharibə cinayətlərinin və bu istiqamətdə fərdi şikayətlərin dünya ictimaiyyətinə geniş şəkildə çatdırılması, bu barədə beynəlxalq ictimai rəyin formalaşdırılması kimi məsələlərin vacibliyi qeyd edilib.

# "Azərbaycanın yeni tarixində mühüm siyasi əhəmiyyəti olan hadisələr arasında Yeni Azərbaycan Partiyasının yaradılması xüsusi yer tutur"



"Azərbaycanın yeni tarixində mühüm siyasi əhəmiyyəti olan hadisələr arasında Yeni Azərbaycan Partiyasının (YAP) yaradılması xüsusi yer tutur. Bu partiyanın yaranması respublikamızın müasir tarixinin ən yaddaqalan hadisələrindəndir. YAP Azərbaycan tarixinin son dərəcə ağır və mürəkkəb günlərində, ölkənin ciddi vətəndaş qarşıdurmasına məruz qaldığı bir dövrdə ziyalıların təşəbbüsü və fəal iştirakı ilə yaranıb. Bu siyasi təşkilatın yaranması 1988-ci ildən başlayaraq ölkəmizdə cərəyan edən hadisələrin yekunu və mövcud olan ictimai-siyasi şəraitin məntiqi nəticəsi idi". Bu sözləri "Yeni Azərbaycan" qəzetinə açıqlamasında Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri, YAP İcra katibinin müavini Mübariz Qurbanlı deyib.

Mübariz Qurbanlı bildirib ki, Yeni Azərbaycan Partiyası tarixi bir vəzifəni, missiyanı yerinə yetirmək zərurətindən meydana gəlib. Partiyanın, xalqımızın Lideri və o dövrdə ölkəni böhrandan çıxarmağa qadir olan yeganə şəxsiyyət Ulu Öndər Heydər Əliyevin belə bir siyasi təşkilatı yaratması həmin dövrün, zamanın tələbi idi. Məhz Ümummilli Lider Heydər Əliyevin yaratdığı YAP, millətin qarşısında duran bu tarixi vəzifəni yerinə yetirməyə qadir olan bir partiya kimi özünü göstərdi və tarixi sınaqdan üzüağ çıxdı. YAP yarandıqdan sonra ümummilli vəzifələrin həyata keçirilməsi, o cümlədən dövlət quruculuğu istiqamətində ciddi səylər ortaya qoyuldu. Ümummilli Lider xalqı Öz ətrafında birləşdirərək cəmiyyətin bütün təbəqələrinin dəstəyi ilə milli müstəqilliyimizin dönməzliyini təmin etdi, Azərbaycanın sosial-iqtisadi inkişaf modelini müəyyənləşdirdi. İlk dəfə olaraq xalqımız müstəqil dövlətin Konstitusiyasını qəbul etdi, dövlət idarəçilik forması müəyyənləşdirildi, ictimai mülkiyyətdən liberal iqtisadiyyata keçid reallaşdı. Artıq Azərbaycan cəmiyyətinin avanqard siyasi qüvvəsinə çevrilmiş hakim partiya Ümummilli Liderin ideyasının məhsulu idi. Ümummilli Lider Azərbaycanın milli ideologiyasından, milli baxışlarından danışarkən qeyd etdiyi kimi, Yeni Azərbaycan Partiyasının proqramında əks etdirilən prinsiplər, əslində, Azərbaycan xalqının, dövlətimizin söykəndiyi ali prinsiplərdir. Heydər Əliyev bu prinsipləri müəyyən edərkən Azərbaycan xalqının keçdiyi tarixi yolu, milli-mənəvi dəyərləri, eyni zamanda, perspektivdə qarşımızda duran vəzifələri nəzərə alıb.

Onun sözlərinə görə, 1993-cü il oktyabrın 3-də YAP-ın Sədri Heydər Əliyevin respublikamızın Prezidenti seçilməsi ilə partiyanın həyatında yeni dövrün əsası qoyuldu: "Partiyanın statusu yeni şəraitə uyğun olaraq dəyişdi, ölkənin siyasi həyatında onun tutduğu mövqe möhkəmləndi, kütləvi siyasi qüvvəyə çevrilərək ictimai həyatın bütün sahələrində tərəqqiyə nail olmaq məqsədilə yüksək fəallıq nümayiş etdirdi. Möhtərəm Prezidentimiz İlham Əliyevin Yeni Azərbaycan Partiyasının 2005-ci ilin mart ayının 26-da keçirilən III Qurultayında YAP-ın Sədri seçilməsindən sonra bu təşkilat uğurlar partiyasına çevrilib. Faktlara diqqət yetirdikdə, ötən müddət ərzində Heydər Əliyev ideyalarına söykənən partiyamızın ilbəil gücləndiyinin bir daha şahidi oluruq. Bu, təkcə partiyamızın deyil, müasir Azərbaycanın taleyidir. Çünki partiyamız müasir, müstəqil dövlətimizlə eyni addımlayır. Dövlətimizin başçısı Ümummilli Lider Heydər Əliyevin müəyyənləşdirdiyi yolu uğurla davam etdirərək, Azərbaycanı dünya birliyinin layiqli dövlətləri sırasına qoşub. Müstəqil Azərbaycan tarixində öz üzərinə böyük tarixi missiya götürən və xalqımızın həyatında mühüm hadisəyə çevrilən Yeni Azərbaycan Partiyası bu gün sıralarında 760 mindən artıq üzvü birləşdirir. Bu, təkcə statistika deyil, eyni zamanda, ölkə vətəndaşlarının Azərbaycan reallığına verdiyi qiymət və Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu daxili və xarici siyasətə inamın ifadəsidir".

M.Qurbanlı qeyd edib ki, Azərbaycan xalqı Yeni Azərbaycan Partiyasının Sədri, dövlət başçısı cənab İlham Əliyevə yüksək inam və etimad göstərməklə ölkəmizin möhtəşəm nailiyyətlər, uğurlar qazanmasına vəsiqə vermiş oldu: "Prezidentimiz cənab İlham Əliyevin xalq qarşısında çıxışında səsləndirdiyi bütün fikirlər, verdiyi vədlər hər biri tam şəkildə yerinə yetirilib və yetirilməkdədir. Müstəqil dövlətçilik tariximizin ən qürurlu günlərini yaşadığımız bu günlərdə qazandığımız böyük qələbə möhtərəm Prezidentimizin həyata keçirdiyi uğurlu siyasətin məntiqi nəticəsidir. Dövlət başçımızın qətiyyətli mövqeyi və möhkəm iradəsi sayəsində müzəffər Azərbaycan Ordusu işğal altındakı ərazilərimizi azad edərək, millətimizə böyük sevinc bəxş etdi. Azğın, məkrli düşməni həm döyüş meydanında, həm də siyasi arenada diz üstə çökdürən Prezidentimiz xalqımıza verdiyi vədə Böyük Lider kimi əməl etdi. Qarabağımızı işğaldan azad etməsi ilə 30 illik həsrətimizə son qoyan cənab Prezidentimizin həm siyasi meydanda, həm də döyüş meydanında necə güclü diplomat və sərkərdə olduğuna nəinki Azərbaycan xalqı, bütün dünya bir daha şahid oldu. Bu möhtəşəm qələbə və Yeni Azərbaycan Partiyasının yaranmasının 28 illiyi münasibətilə Azərbaycan xalqını və qələbələr salnaməsinə yeni bir səhifə əlavə etmiş Yeni Azərbaycan Partiyasının bütün üzvlərini təbrik edirəm".

# Mübariz Qurbanlı: İşğaldan azad olunan torpaqlarımızda tarixi-dini abidələr bərpa olunacaq

"İşğal olunmuş torpaqlarımızın azad edilməsi uğrunda ölkəmizin uğurla həyata keçirdiyi Vətən müharibəsində etnik tərkibindən, dini mənsubiyyətindən asılı olmayaraq hər bir Azərbaycan vətəndaşı fəal şəkildə iştirak edir". Bu fikirləri Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sədri Mübariz Qurbanlı Real TV-yə müsahibəsində bildirib. Komitə sədri vurğulayıb ki, müharibədə iştirak edən əsgərlərimizə hamı eyni dərəcədə öz diqqət və qayğısını göstərir, yardımını etməyə çalışır, həmrəylik nümayiş etdirir. Bu bizim milli xüsusiyyətimiz, sərvətimiz, həm də dəyərimizdir. Biz bu dəyəri çox yüksək qiymətləndiririk və Azərbaycan dövlətinin siyasətində də bu özünü açıq şəkildə göstərir.

DQİDK sədri deyib ki, istər hazırki Vətən müharibəsi, istərsə də birinci Qarabağ savaşı və Aprel döyüşləri zamanı ölkəmizdəki dini məbədlərdə çalışan din xadimləri həmişə öz ibadətlərində Azərbaycan Ordusuna, Azərbaycan əsgərinə dualar edib, qələbə çalmağımız üçün çağırışlar ediblər: "Bu müharibədə dini konfessiyalar Azərbaycan xalqı ilə həmrəydir. Döyüş meydanında şəhid olan əsgərlərimizin içərisində rus, yəhudi və digər xalqların, müxtəlif dinlərin nümayəndələri vardır. Bu, çoxdinlilik və multikultural dəyərlərin mövcud olduğu ölkədə mühüm göstəricidir. Ölkəmizdə fəaliyyət göstərən müsəlman icmaları ilə yanaşı, qeyri-islam dini icmaları da Ermənistanın Azərbaycan əleyhinə xaricdə apardığı təbliğata qarşı kifayət qədər fəallıq nümayiş etdirirlər. Qeyri-müsəlman dini icmaları xaricdə olan mərkəzlərinə, o cümlədən ABŞ Konqresinə, ATƏT, Avropa Şurası və digər beynəlxalq qurumlara müraciət edərək bu müharibənin hər hansı bir dini qarşıdurma və dinlərarası müharibə olmadığını ifadə ediblər".

Təcavüzkar Ermənistanın monoetnik ölkə olduğunu diqqətə çatdıran M.Qurbanlı vurğulayıb ki, Ermənistanda Qriqoryan kilsəsi var, hətta orada Pravoslav Kilsəsini belə sıxışdırırlar. "Mən hələ İslama aid olan məbədləri demirəm, onları tamamilə aradan qaldırıblar, qeyri-xristian dini icmaları isə Ermənistanda faktiki olaraq yox dərəcəsindədir", - deyə o əlavə edib.

Erməni tərəfinin Azərbaycana atdığı ballistik raketlər nəticəsində Gəncədəki dini-tarixi abidələrin, İmamzadə kompleksinin, Aleksandr Nevski adına kilsənin də zərər çəkdiyini bildirən Mübariz Qurbanlının sözlərinə görə, digər ərazilərimizə atılan raketlər də tarixi-dini abidələrə zərər vurub: "Ermənilər haqiqəti ört-basdır etmək üçün daha çox yalana əl atırlar. Onlar tarixi-dini abidələr haqqında danışmağa mənəvi haqqı olmayan xalqlardan biridir. Ermənistanda xalqımıza məxsus tarixi-dini abidələr, məzarlıqlar darmadağın, yerlə-yeksan edilib. Dağlıq Qarabağda ermənilər 1000-ə qədər dini və mədəniyyət abidələrinə qarşı vandallıq nümayiş etdiriblər. Bunların içərisində yüzlərlə məscidlər vardır. Bu, XXI əsr barbarlığının nümunəsidir. Onlar erməni təbliğatı və hiyləsinin bir forması kimi saxladıqları Şuşadakı Yuxarı Gövhərağa məscidini isə özgələşdiriblər, Azərbaycana məxsus olmadığını göstərmək üçün məsciddə təmir işləri aparıblar. Məscidin fasadını, memarlıq elementlərini dəyişməklə başqa xalqa məxsus olduğunu göstərməyə çalışıblar".

Mübariz Qurbanlı bildirib ki, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi erməni vandalizmi barədə 5 dildə kitab çap etdirib. Həmin kitabda erməni vandalizmi fotofaktlarla göstərilib: "Bu yaxınlarda isə erməni tapdağından azad olunan Zəngilandakı məsciddə əsgərlərimizin çəkdiyi videogörüntü erməni vandallığının növbəti sübutudur. Bu fakt ermənilərin insanların heysiyyatına, dini dəyərlərinə barbarcasına yanaşmasının növbəti bariz nümunəsidir. Ermənilərin tarixi-dini abidələrə qarşı etdiyi bu barbarlığa tarixi-dini abidələrin soyqırımı demək olar. Qafqaz Albaniyası tarixdə çox böyük izə, mədəni irsə malikdir. Çar Rusiyası Qafqaza gəldikdən və Azərbaycan da Çar Rusiyasının tərkibinə daxil edildikdən sonra ermənilər həmin tarixi irsi, tarixi abidələri, o cümlədən kilsələri də mənimsəmə xəttini həyata keçiriblər. Kəlbəcər, Laçın, Xocavənd və Ağdərədə Qafqaz Albaniyasına aid tarixi-dini abidələr vardır ki, bu ərazilər azad edildikcə onlar Alban-udi xristian dini icmasına veriləcək və Qafqaz Albaniyasının tarixi-dini mədəniyyətinin nümunələri kimi xalqımızın istifadəsində qalacaqdır".

Dövlət Komitəsinin sədri onu da deyib ki, Azərbaycana xaricdən gələn nümayəndələr Bakıda erməni kilsəsinin necə qorunduğunu gördükdən sonra ölkəmizin dinlərə, abidələrə nə qədər tolerant yanaşdığının şahidi olublar: "Həmin kilsədə 30 mindən çox erməni yazıları saxlanılır. Ermənilərin katolikosu buraya gəldikdə özü də onlarla tanış olmuşdur. Baxmayaraq ki Ermənistan bizə qarşı təcavüz edib, dini məsələlərə Azərbaycan hər zaman həssaslıq nümayiş etdirib" - deyən natiq vurğulayıb ki, işğaldan azad olunan torpaqlarımızda azan səsi eşidilməkdədir və həmin ərazilərdə yenidənqurma, bərpa işlərində, təbii ki, tarixi dini abidələrin bərpası da nəzərdə tutulur.

# Zəfərə gedən yol: milli birlik və dini həmrəylik

Azərbaycanın Vətən müharibəsi xalqımızın parlaq qələbəsi ilə yekunlaşdı. Uzun illərdir düşmən tapdağı altında qalan əzəli və əbədi torpaqlarımız işğaldan azad edildi. Xalqımız bu şanlı Qələbəni böyük ruh yüksəkliyi və sevinclə qeyd etməkdədir. Şübhə yoxdur ki, bu zəfərin qazanılmasında üç əsas amil başlıca rol oynadı. Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin müdrik və uzaqgörən unikal hərbi-siyasi gedişləri, yüksək peşəkarlığa malik, şücaətli və cəsarətli Azərbaycan Ordusu, ən nəhayət, xalqımızın nümayiş etdirdiyi milli və dini həmrəylik müharibənin taleyini həll etdi.

44 gün davam edən Vətən müharibəsinin hər dəqiqəsi xalqımız üçün taleyüklü əhəmiyyət daşıyırdı. Xüsusilə mədəniyyətimizin və milli-mənəvi dəyərlərimizin beşiyi sayılan Şuşa şəhərinin işğaldan azad edilməsi milli ruhumuzu zirvələrə qaldırdı. Bu günlər ərzində Azərbaycan xalqı cənab Prezidentin deyimi ilə bir yumruq kimi birləşdi. Hər kəsin dilində "Qarabağ Azərbaycandır" şüarı, əlində Azərbaycan bayrağı, qəlbində qürur və fərəh hissi var idi. Xalq bir amal və bir məqsəd üçün yekvücud olmuş, torpaqlarımızın işğaldan azad edilməsi uğrunda bütün varlığını ortaya qoymuşdu.

Fərqliliklərin zənginlik sayıldığı Azərbaycan bu sınaqdan da üzüağ və alnıaçıq çıxmağı bacardı. Vətən müharibəsində müxtəlif xalqların və dinlərin mənsubu olan azərbaycanlılar çiyin-çiyinə, qətiyyətlə və vətənpərvərliklə döyüşərək qanları, canları bahasına işğala son qoydular. Bu prosesdə xüsusilə, ölkəmizdə fəaliyyət göstərən dini konfessiyaların fəaliyyətini qeyd etmək lazımdır. İstər döyüş meydanında, istər ideoloji mübarizədə, istərsə də haqq səsimizin beynəlxalq səviyyədə eşidilməsində dini konfessiyalar müstəsna xidmətlər göstərdilər.



Dövlətin uzun illər dini icmalarla multikulturalizm və tolerantlıq prinsipləri əsasında həyata keçirdiyi düşünülmüş siyasət nəticəsində bu gün ölkəmizdə dini həmrəylik ən yüksək səviyyədə təzahür edir.

Başda Qafqaz Müsəlmanları İdarəsinin sədri, Şeyxülislam Allahşükür Paşazadə olmaqla, bütün konfessiya rəhbərləri dəfələrlə milli birlik və dini həmrəylik göstərərək düşmənin ölkəmizə qarşı yönəlmiş təxribatlarına kəskin şəkildə etiraz etdilər. Bu işdə qeyri-islam dini icmaları da böyük səy göstərdilər. Onlar tərəfindən cəbhədə Vətən torpaqlarını işğaldan azad edən qəhrəman əsgərlərə humanitar yardımlar göndərildi. İşğal faktına etiraz məqsədilə qeyri-islam dini icmaları tərəfindən müxtəlif səpkili, xarici dillərdə sənədli filmlər, videoçarxlar, məlumat xarakterli materiallar hazırlanaraq yerli və dünya ictimaiyyətinə, o cümlədən beynəlxalq siyasi dairələrə, təşkilatlara dini mərkəzlərə təqdim edildi.

Dini icmalar mənəvi cəhətdən ordumuzu dəstəkləməklə onların qələbəsi üçün daim dualar etdilər, ayinlər həyata keçirdilər. Həmin dini icmaların üzvləri birbaşa döyüşlərdə könüllü şəkildə iştirak edərək qəhrəmanlıq göstərdilər. Təsadüfi deyil ki, Azərbaycanın ərazi bütövlüyü və suverenliyi uğrunda şəhid olan vətəndaşlarımız arasında bütün xalqların və dinlərin nümayəndələri var. Bu bizim milli vəhdətimizin, ümumxalq hədəflərimizin eyni olmasının göstəricisidir. Fürsətdən istifadə edərək, Müzəffər Ordumuzun qələbəsinə inanan, dəstək göstərən, dualar edən bütün dini konfessiya nümayəndələrinə təşəkkürümü bildirirəm. Azərbaycanımızın inkişafı və mürəffəh gələcəyi naminə bundan sonra da birliklə çalışmalı, səylərimizi birləşdirməliyik. Yaşasın müstəqil və suveren Azərbaycan!

***Səyavuş Heydərov,***
*DQİDK sədrinin müavini*
*"Yeni Azərbaycan" qəzeti*

# "Bütün tarixi-dini abidələrimiz, məscidlərimiz, eləcə də alban kilsələri bərpa ediləcək"

"Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin apardığı araşdırmalara əsasən, Azərbaycanın işğaldan azad edilən ərazilərində 67 məscid olub. Onlardan 66-sı dağıdılıb". Bunu Azvision.az -a açıqlamasında Dövlət Komitəsinin sədr müavini Gündüz İsmayılov deyib. Onun sözlərinə görə, yalnız bir məscid - Şuşa şəhərindəki Yuxarı Gövhər Ağa məscidi məqsədyönlü şəkildə saxlanılıb və orada yüngülvari təmir işləri aparılıb.



"Ermənistanın məkrli planına əsasən, Şuşa məscidi saxlanılıb, İslam aləminə, bütün dünyaya təqdim ediləcəkdi ki, guya "Ermənistan məscidləri dağıtmır" və "Ermənistanın İslam dünyası, müsəlmanlarla problemi yoxdur". Buna nümunə olaraq Yuxarı Gövhər Ağa məscidini göstərirlər. Lakin onların məkrlərinə baxın ki, həmin məscidi İran məscidi kimi qələmə verirdilər".

G.İsmayılov qeyd edib ki, işğaldan azad olunan ərazilərdə tarixi-dini abidələrimizlə bağlı Ermənistanın siyasətində üç əsas məqam dayanır: tarixi-dini abidələri özününküləşdirmək, özgəninkiləşdirmək və dağıtmaq: "Özgəninkiləşdirmək deyəndə Yuxarı Gövhər Ağa məscidini nəzərdə tuturam. Özününküləşdirdikləri isə Qafqaz Albaniyasının yadigarı olan alban məbədləri idi. Ermənilər bunları qriqoryanlaşdırmışdılar. 192 ziyarətgahımız olub və onların hamısı dağıdılıb. Bir neçə məsciddən donuz saxlamaq üçün istifadə ediblər. Biz bunu Ağdam "Cümə" məscidi, Qubadlı rayonundakı Məmər məscidi və digərlərində gördük. Prezident İlham Əliyev Cocuq Mərcanlıda Şuşa məscidinin bənzəri olan məscidin açılışında demişdi ki, "ermənilər bizim məscidləri dağıda bilərlər, amma onları bizim ürəyimizdən silə bilməzlər. Biz o məscidlərin hamısını işğaldan azad edəcəyik və bərpa edəcəyik". Bu gün həmin məscidlər işğaldan azad olunub və həmin məscidlər mütləq bərpa ediləcək. Təbii ki, onların hamısını olduğu kimi bərpa etmək mümkün olmayacaq. Çünki elə dağıntılardır ki, bərpa etmək çətin olar".

Komitə sədrinin müavini vurğulayıb ki, istənilən halda, bütün tarixi-dini abidələrimiz, o cümlədən, məscidlərimiz, eləcə də alban kilsələri bərpa ediləcək: "Bununla bağlı Azərbaycan dövləti əlindən gələni əsirgəməyəcək. Öncə ərazilərimiz minalardan təmizlənməli, təhlükəsizlik təmin edilməlidir, daha sonra tarixi abidələrimizin bərpası ilə yanaşı, məscidlərimiz də bərpa ediləcək. Yuxarı Gövhər Ağa məscidini qismən təmir etsələr də, ermənilər məqsədli şəkildə digər alban məbədlərində olduğu kimi orada da müəyyən dəyişiklər ediblər. Lakin bunların hamısı əvvəlki vəziyyətinə qaytarılacaq. Qafqaz Müsəlmanları İdarəsinin həm Ağdam, həm də Şuşa üzrə rəsmi təyin olunmuş din xadimləri var. Ağdam üzrə QMİ-nin din xadimi Hacı Barat, Şuşa üzrə isə Hacı Mirabdulladır", - deyə Gündüz İsmayılov əlavə edib.

# DQİDK-nın şöbə müdiri ATƏT-in İnsan Ölçüsü üzrə üçüncü Əlavə Görüşündə çıxış edib

9-10 noyabr tarixlərində Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatına (ATƏT) sədrlik edən Albaniya və ATƏT-in Demokratik Təsisatlar Bürosunun dəstəyi ilə təşkil olunan "Din və Etiqad Azadlığı: Bu hüququn hamı üçün irəlilədilməsində Rəqəmsal Texnologiyaların və Vətəndaş Cəmiyyəti Aktorlarının rolu" mövzusunda ATƏT-in İnsan Ölçüsü üzrə üçüncü Əlavə Görüşü keçirilib.

Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) Xarici əlaqələr şöbəsinin müdiri Əli Həziyev COVID-19 pandemiyası ilə əlaqədar olaraq videokonfrans formatında keçirilən görüşün "ATƏT bölgəsində din və etiqad azadlığının vəziyyəti: Çağırışlar və perspektivlər" mövzusunda I sessiyasında çıxış edib.

Ə.Həziyev çıxışında Azərbaycanda dini zəmində dözümsüzlük və ayrı-seçkiliyə yol verilməməsi, habelə ölkəmizdə müxtəlif dinlər arasında dialoqun gücləndirilməsi istiqamətində davam etdirilən tədbirlər barədə danışıb. Bildirib ki, dövlət bu sahədə fəaliyyətini hər zaman multikulturalizm və tolerantlıq siyasətinə sadiq olaraq aparır.

Şöbə müdiri, həmçinin videokonfrans iştirakçılarını Ermənistanın işğalçılıq siyasəti, sentyabrın 27-də Ermənistan tərəfinin başladığı hərbi hücumlar nəticəsində Azərbaycanın münaqişə zonasına aid olmayan yaşayış məntəqələri, eləcə də tarixi-dini abidələrin dağıdılması, onların təhqir edilməsi, mülki əhalinin həlak olması barədə məlumatlandırıb.

Videokonfrans zamanı Ermənistanın öz təcavüzkar siyasətinə dini don geyindirmək cəhdləri də diqqətə çatdırılıb.



# "İşğaldan azad olunan ərazilərdəki dini abidələrin sayı dəqiqləşdirilir"



Torpaqlarımızın işğaldan azad olunmasından sonra ortaya çıxan mənzərə düşmənin bu əraziləri tamamilə dağıtdığını göstərdi. Qədim yaşayış yerlərimizdə olan tikililər arasında dini abidələr, məscid və ziyarətgahlar da önəmli yer tutur.

Bir sözlə, bu abidələr də yerlə-yeksan edilib. Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Dini qurumlarla iş üzrə şöbəsinin müdiri Cahandar Əlifzadə mövzu ilə bağlı Lent.az -ın suallarını cavablandırıb.

***- İşğaldan azad olunan şəhər, rayon və kəndlərimizdə yerləşən məscidlər, dini abidələr və ziyarətgahlar haqqında məlumat verərdiniz? Bu ərazilərdə nə qədər bu cür abidələr olub?***

- İşğala qədərki dövrdə aparılmış statistikaya görə, Ermənistan ordusunun işğalından azad edilən ərazilərdə tarixi-dini abidələrin sayı ümumən 403-dür. Onlardan 67-si məscid, 144-ü Alban irsinə aid məbəd və kilsə, 192-si isə ziyarətgahlardır, qəbiristanların sayı isə 900-dən artıqdır. Lakin bildiririk ki, bunlar yekun rəqəmlər deyil. Çünki sovetlər dövründə təyinatı dəyişdirilmiş dini ibadət evlərinin bu siyahıya düşmədiyi bildirilir. Hazırda bu istiqamətdə dəqiqləşdirmələr aparılır.

***- Dağıdılan abidələrin yenidən eyni adlarla tikilməsi-bərpası nəzərdə tutulub?***

- İşğaldan azad olunmuş ərazilərdəki dini ibadət ocaqlarının hər biri bərpa olunacaq. Azərbaycan Prezidenti İlham Əliyev öz müsahibə və çıxışlarında dəfələrlə bəyan edib ki, tarixi-mədəni, o cümlədən dini ibadət ocaqları bərpa olunub insanların istifadəsinə veriləcək. Bununla bağlı monitorinqlər aparılacaq, mövcud tikililərin texniki vəziyyəti qiymətləndirildikdən sonra onlar barədə qərar veriləcək.

***- Komitənin bu abidələrlə bağlı hər hansı nəşrin, fotoların hazırlanması və yayılması planı var?***

- Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin nəşr etdiyi ədəbiyyatlarda Qarabağ ərazisində yerləşən dini abidələrimizə geniş yer verilib. Nahid Məmmədovun 2015-ci ildə nəşr olunmuş "İşğal altındakı tarixi-dini abidələrimiz" kitabı bütövlükdə bu məsələyə həsr olunub. Kitab türk, rus, ingilis, ərəb və alman dillərinə tərcümə olunub, Azərbaycana gələn qonaqlara, beynəlxalq tədbirlərin iştirakçılarına hədiyyə edilib. Eyni zamanda, "Azərbaycanın seçilmiş İslam abidələri" (Azərbaycan və ingilis dillərində), "Azərbaycan İslam mədəniyyətinin incisi" (Azərbaycan, ərəb, rus və ingilis dillərində) və "Qısa İslam Ensiklopediyası" kitablarında işğaldan azad olmuş ərazilərdəki dini ibadət ocaqları ilə bağlı məlumatlar verilib.

Bunlarla yanaşı, Komitə tərəfindən Bakıda, Türkiyənin Eskişəhər, İranın Təbriz, Belçikanın Brüssel şəhərlərində keçirilən beynəlxalq tədbirlərdə təşkil olunan fotosərgilərdə Qarabağ abidələrinə də geniş yer verilib.

Dövlət Komitəsi növbəti illərdə də bu istiqamətdə öz fəaliyyətini davam etdirəcək. Hazırda əvvəlki nəşrlərin yenidən işlənərək çap olunması, eyni zamanda işğaldan azad olunmuş yerlərdəki abidələrin mövcud vəziyyəti ilə bağlı foto-albomun hazılanması üzrə layihələr üzərində iş gedir.

# Alban-udi xristian dini icması Azərbaycanın ərazi bütövlüyünün bərpasını dəstəklədiyi barədə bəyanat yayıb

Azərbaycan Alban-udi xristian dini icması Azərbaycanın beynəlxalq hüquqla təsbit olunmuş ərazi bütövlüyünün bərpası istiqamətində həyata keçirilən bütün fəaliyyəti dəstəklədiyi və bu prosesdə yaxından iştirak etdiyi barədə bəyanat yayıb.

Dini icmanın sədri Robert Mobilinin imzaladığı bəyanatda deyilir ki, Azərbaycan Alban-udi xristian dini icması Alban (Qafqaz) Apostol Müstəqil Kilsəsinin varisidir. Alban Kilsəsi Qafqazın ilk apostol kilsəsi kimi uzun tarixi yol keçmişdir. Lakin müxtəlif təzyiq və təsirlərdən sonra 1836-cı ildə ləğv edilmiş, onun maddi və mənəvi irsinin bir qisminə Erməni-qriqoryan Kilsəsi sahib çıxmağa çalışmışdır. Nəticədə Azərbaycanda, xüsusilə Qarabağda tarixi alban məbədlərinin böyük bir qismi qriqoryanlaşdırılmış, tarixi abidələrimizlə yanaşı, arxiv materialları və sənədlər ya məhv edilmiş, ya da saxtalaşdırılmışdır.

Bəyanatda bütün dinlərin nümayəndələrinə, o cümlədən Erməni-qriqoryan Kilsəsinin mənsublarına humanist münasibət göstərən Azərbaycan dövlətinin işğaldan azad olunmuş şəhər və kəndlərdəki alban məbədlərində alban-udi icmasının üzvlərinə ibadət üçün şərait yaradacağına və bununla da, tarixi ədalətsizliyin aradan qalxacağına inandıqları bildirilir. Həmçinin, əsrlər boyu Erməni-qriqoryan Kilsəsinin təsir və təzyiqlərinə, mənimsəmə və saxtalaşdırmaqla Alban irsinə böyük zərbə vurmasına baxmayaraq, sülh və insanlıq naminə Erməni-qriqoryan Kilsəsi ilə əməkdaşlığa, işğaldan azad edilmiş ərazilərdə birgə yaşamağa hazır olduqları bəyan edilir.

# Şuşa məscidində namaz qılınıb

Azərbaycanın tarixi şəhəri, Qarabağın incisi Şuşa şəhərində yerləşən Gövhər Ağa məscidində 28 ildən sonra ilk dəfə azan oxunub və namaz qılınıb. Bu barədə video sosial şəbəkələrdə yayılıb. Videoda Şuşa məscidinin minarəsində Azərbaycan bayrağının asıldığı və hərbçilərimizin namaz qılmaq üçün məscidə daxil olduğu görünür. Videonu çəkən hərbçimiz "şükürlər olsun" deyərək məscidə daxil olur.

Qeyd edək ki, Prezident İlham Əliyev noyabrın 8-də Şuşanın işğaldan azad edilməsi ilə bağlı xalqa müraciətində bildirmişdi ki, 28 il yarım işğal altında olan Şuşanın Azərbaycan tarixində xüsusi yeri var: "Bu, bizim qədim, tarixi şəhərimizdir. Əsrlər boyu azərbaycanlılar Şuşada yaşayıb, qurub, yaradıb. Şuşa nəinki Azərbaycanın, bütün Qafqazın incisidir. Ancaq mənfur düşmən Şuşanı işğal altında saxlamaqla bizim mədəni irsimizə böyük zərbə vurdu, bizim tarixi abidələrimizi dağıtdı, bizim məscidlərimizi dağıtdı, təhqir etdi. Biz indi Şuşaya qayıtmışıq. Bütün tarixi abidələrimizi bərpa edəcəyik, bütün məscidləri bərpa edəcəyik, 28 ildən sonra Şuşada yenə də azan səsi eşidiləcək".

# İƏT Dağlıq Qarabağda ermənilər tərəfindən İslama aid tarixi ziyarətgahların dağıdılmasından narahatlığını bildirib

İslam Əməkdaşlıq Təşkilatının (İƏT) Baş Katibliyi İslam irsinin ayrılmaz hissəsi olan Dağlıq Qarabağda və ətraf rayonlardakı tarixi abidələrin vəziyyəti ilə əlaqədar dərin narahatlığını bildirib.

Bu barədə İƏT-in yaydığı bəyanatda deyilir: "Maddi və mənəvi dəyərlərin, xüsusən Qubadlı rayonunun bu yaxınlarda azad edilmiş Məmər kəndindəki məscidin qəsdən dağıdılması və talan edilməsi, tarixin mənimsənilməsi və saxtalaşdırılması təcavüz siyasətinin bariz sübutudur. İşğal olunmuş ərazilərdə əsrlər boyu qalmış dini-mədəni irslərdən sui-istifadə beynəlxalq qanunların və konvensiyaların, o cümlədən "Silahlı Münaqişələr zamanı Mədəni Mülkiyyətin Qorunmasına dair 1954-cü il Haaqa Konvensiyası"nın və 1954, 1999-cu il protokollarının açıq şəkildə pozulmasıdır. Xarici işlər nazirləri Şurasının 46-cı iclasında İƏT "İslamın müqəddəs yerlərinin qorunması haqqında" 3/46-S saylı Qərar qəbul edib. Qərarda erməni təcavüzkarları tərəfindən Azərbaycan Respublikasında İslama aid tarixi və mədəni irsi tamamilə məhv etmək məqsədi, barbar hərəkətləri pislənilib".

# «Newsweek» nəşrində Azərbaycanın dini liderlərinin məqaləsi dərc edilib

Amerikada çıxan "Newsweek" jurnalında Azərbaycan aşkenazi yəhudilərinin baş ravvini Şneor Seqal, Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının arxiyepiskopu Aleksandr Ata və Qafqaz Müsəlmanları İdarəsinin sədri Hacı Allahşükür Paşazadənin imzası ilə "Qarabağın gələcəyi naminə bir məsləkdəyik" sərlövhəli məqalə dərc edilib.

Məqalənin müəllifləri - Azərbaycanın yəhudi, xristian pravoslav və müsəlman icmalarının liderləri dünya KİV-ində yayılmış, ölkəmizin qoşulduğu "müqəddəs müharibə"də xristianların guya təhlükədə olması barədə xəbərlərə münasibət bildirməyi qərara alıblar.

Ermənistan ilə Azərbaycan arasında münaqişənin eskalasiyası bütün dünyanın gözü qarşısında baş verir. Başqalarının istəyindən asılı olmayaraq bu münaqişə heç də dini xarakter daşımır və Azərbaycan "işğalçı müsəlman" rolu oynamır. Azərbaycanın multikonfessional, multietnik mühitində aşkenazi yəhudiləri icması, unikal dağ yəhudiləri icması, katolik və pravoslav xristianlar, habelə erməni kilsəsi rahat fəaliyyət göstərir. Hətta Azərbaycanda İslam dininə etiqad edənlər də eyni məzhəbə aid deyil. Bizim vətəndaşlar arasında sünnilər də var, şiələr də.

Ermənistanın sırf xristian ölkəsi olması isə əsla şübhə doğurmur. Azərbaycan ərazilərinin 1988-1994-cü illərdə Ermənistan tərəfindən işğal edilməsi nəticəsində 300 mindən çox azərbaycanlı Ermənistandan qaçqın vəziyyətinə düşüb. Bu insanların əksəriyyəti müsəlmanlardır. Müharibənin gedişində 700 minə yaxın azərbaycanlı Dağlıq Qarabağdan və ona bitişik ərazilərdən qovulub. Azərbaycanın beynəlxalq miqyasda tanınmış əraziləri olan bu torpaqlar indiyə qədər mənfur qonşular tərəfindən işğal edilib.

Müəlliflər daha sonra qeyd edirlər ki, Azərbaycan işğalçı dövlət deyil. Münaqişənin nizamlanması üçün Azərbaycanın təklif etdiyi yol hazırda Dağlıq Qarabağda yaşayan insanların oradan qovulmasını deyil, işğaldan əvvəl həmin ərazidə yaşayan insanların oraya qayıtmasını nəzərdə tutur. Azərbaycan əyani şəkildə göstərib ki, bu ölkədə eyni şəhərlərdə kilsələr, sinaqoqlar və məscidlər dinc yanaşı fəaliyyət göstərə bilər.

Müəlliflər yazırlar: "Gəncə şəhəri raketlərlə atəşə tutulanda aşkenazi yəhudilərinin baş ravvini həmin şəhərə gedib, oradakı yəhudi ailələri ilə birlikdə dua edib. Arxiyepiskop Azərbaycan Silahlı Qüvvələrində könüllü xidmət edən gənc xristian əsgərin dəfn mərasimini təşkil edib. Müfti yaxınlarını itirmiş çoxsaylı müsəlman ailələrinə təsəlli verib. Biz görüşərək birgə dua etmişik. Din adamları kimi bizim borcumuz xalqlarımızın hansı konkret dinə etiqad bəsləməsindən asılı olmayaraq, onların yanında olmaqdır".

# Azərbaycandakı dini konfessiyaların rəhbərləri Qarabağda dağıdılan dini abidələrimizlə bağlı birgə bəyanat veriblər

Azərbaycandakı dini konfessiyaların rəhbərləri Qarabağda erməni vandallar tərəfindən dağıdılan və zərər vurulan dini abidələrimizlə bağlı birgə bəyanat veriblər.

Bəyanatda bildirilir:

"Biz, Azərbaycandakı müsəlman, pravoslav, Alban-udi və yəhudi dini konfessiyalarının rəhbərləri dindarların arzu və iradəsini ifadə edərək xarici ölkələrin dövlət və hökumət başçılarına, beynəlxalq təşkilatların rəhbərlərinə, dini liderlərə və dünya ictimaiyyətinə müraciət edirik. Bu günlərdə öz ərazi bütövlüyünü bərpa etmək uğrunda 30 illik mücadilədən sonra Azərbaycanın üçrəngli dövlət bayrağının Qarabağ torpaqları üzərində yenidən dalğalanması çoxmillətli və çoxkonfessiyalı ölkəmizdə tarixi ədalət və istiqrarın qələbəsi anlamını verir. Azərbaycan dövləti və onun Prezidenti Zati-aliləri cənab İlham Əliyev sülhsevər siyasət yeridərək, uzun illər ərzində Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq və beynəlxalq təşkilatların qərar və qətnamələri əsasında sülh yolu ilə həllində ardıcıllıq nümayiş etdirirdi. Bu illər ərzində siyasi danışıqlar nəticə vermədi, Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazilərindən qeyd-şərtsiz çıxarılmasını tələb edən BMT qətnamələri yerinə yetirilmədi. Ermənistan tərəfinin növbəti hərbi təxribatlarının qarşısını almaq məcburiyyətində qalan Azərbaycan xalqı öz ərazi bütövlüyünü bərpa etmək uğrunda Vətən müharibəsinə qalxdı və bu savaş beynəlxalq hüququn və ədalətin təntənəsi ilə nəticələndi. Ölkəmizin ərazi bütövlüyü uğrunda şəhid olanlar arasında müsəlmanlarla yanaşı xristian və yəhudilər də vardır. Lakin dünya ictimaiyyəti bilməlidir ki, Ermənistan Azərbaycana qarşı təkcə etnik təmizləmə, soyqırımı və işğal deyil, uzun illər ərzində ölkəmizin öz müxtəlifliyi ilə fərqlənən mədəni və mənəvi irsinə qarşı təcavüz siyasəti yeridib. Ermənistanın monoetnikliyə söykənən dövlət siyasəti onun işğal etdiyi ərazilərdə də yalnız erməni izi yaratmağa xidmət edib. Digər xalqlara və dinlərə qarşı dözümsüzlüklə səciyyələnən cəmiyyət yaratmış Ermənistan çoxmillətli və çoxkonfessiyalı Azərbaycanın işğal altında olan ərazilərində tarixən mövcud olmuş qədim alban, pravoslav, müsəlman dini və mədəni irsini tamamilə silməyə çalışıb. Mədəni-mənəvi irs nümunələrimizi ya tamamilə dağıdıb, ya da tarixini və mənşəyini saxtalaşdıraraq özününkiləşdirib – erməniləşdirib, qriqoriyanlaşdırıb. Ermənistandan fərqli olaraq Azərbaycanda, paytaxt Bakıda və müxtəlif bölgələrdə minlərlə erməni əsilli vətəndaş əmin-amanlıq şəraitində yaşayır, Bakının mərkəzində erməni kilsəsi və onun kitabxanası dövlət tərəfindən abadlaşdırılaraq qorunur. Azərbaycanın işğal olunmuş ərazilərində isə məscid, məbəd və məzarlıqlar, tarixi abidələr, muzeylər, kitabxanalar dağıdılıb və talan edilib, Qafqaz Albaniyasına məxsus xristian məbədləri və rus pravoslav kilsələri qriqoriyanlaşdırılıb, məscidlər tövləyə çevrilərək İslam dinində haram sayılan heyvanların saxlanılması kimi misli görünməmiş həqarət əməllərinə məruz qalıb. Qarabağ ərazisində mövcud olan 67 məsciddən 63-ü yerlə-yeksan edilib, qalan 3 məscidə isə ciddi zərər vurulub. Ermənistan öz ərazisində yerləşən tarixi Azərbaycan dini abidələrini – İrəvan "Şah Abbas", "Sərdar", "Hacı Novruz Əli" və digər məscidləri tamamilə uçurub, Göy məscidin arxitektura xüsusiyyətlərini dəyişərək özgəninkiləşdirib. Yalnız müsəlman məscidlərini məhv etməklə kifayətlənməyən Ermənistan Şuşadakı İoann Predteça pravoslav kilsəsini, digər bölgələrdəki Alban-udi məbədlərini qəsb edərək qriqoriyanlaşdırıb, Xocavənd pravoslav kilsəsini tamamilə dağıdıb. Təcavüzkar dövlətin bu cür vandal əməllərə əl atmaqda əsas məqsədi "böyük Ermənistan" yaratmaq xülyası ilə bizim minilliklər ərzində yaşadığımız torpaqlarda həm tarixi keçmişimizi, həm də mənəvi yaddaşımızı məhv etmək olub. İllərlə öz təcavüzkar siyasətini davam etdirən Ermənistan rejimi beynəlxalq hüquq və beynəlxalq humanitar hüquq normalarına heç bir məhəl qoymayıb, işğal etdiyi torpaqlarda yanğınlar, fosforlu bombalar, zəhərli maddələr və minalar vasitəsilə ekoloji cinayətlər törədib. Bu gün onların Azərbaycan ərazilərindən çıxarkən törətdikləri vəhşiliklər, maddi-mənəvi sərvətlərin talan edilməsi, sənət əsərlərinin oğurlanması, meşələrə və mülki obyektlərə od vurulması kimi real faktlar dünya mediası tərəfindən geniş işıqlandırılır. Ermənistanın çoxmillətli və çoxkonfessiyalı Azərbaycan xalqının dini və mədəni irsinin məhv edilməsi və saxtalaşdırılmasına yönəlmiş əməlləri beynəlxalq humanitar hüquq, o cümlədən Cenevrə Konvensiyalarının açıq-aşkar pozulması ilə yanaşı, bütün bəşər mədəniyyətinə və ümumdünya əhəmiyyətli irsinə qarşı təcavüzdür. Multikultural ənənələrə sadiq olan Azərbaycan Hökuməti mədəni-mənəvi dəyərlərin qorunması siyasətini prioritet istiqamət kimi dəyərləndirir və nəinki ölkə daxilində, hətta dünyanın müxtəlif bölgələrində, o cümlədən Vatikanda, Fransada, Bolqarıstanda, Serbiyada tarixi abidələrin, məscid və kilsələrin bərpasına əvəzsiz töhfələr verir. Dünyanın multikulturalizm mərkəzlərindən biri kimi tanınan Azərbaycan sivilizasiyalararası və dinlərarası dialoqu təşviq edən bir sıra nüfuzlu beynəlxalq tədbirlərə, o cümlədən 2019-cu ilin noyabr ayında Dünya dini liderlərinin II Bakı sammitinə ev sahibliyi edib. 2016-cı ilin oktyabr ayında Azərbaycana səfər edən Roma Papası Fransisk ölkəmizdə müxtəlif mədəniyyətlər və dini konfessiyalar arasında əməkdaşlıq və dialoqu yüksək qiymətləndirib.

Hazırda Ermənistan Azərbaycana qarşı dini mövzuda yalan təbliğat aparır, işğaldan azad olunmuş ərazilərimizdə dini-mədəni abidələrin guya Azərbaycan tərəfindən dağıdılmasına yönələn addımların atıldığını iddia edir, öz təxribatını ölkəmizin adına yazmağa cəhd göstərir. Bu qədər real faktların müqabilində təcavüzkar Ermənistanın davamlı riyakar çıxışları, feyk xəbərləri, özünü məzlum göstərən yalan informasiyaları Azərbaycan vətəndaşlarının, tolerant, multikultural ölkədə yaşayan bütün dini konfessiya nümayəndələrinin haqlı qəzəbinə səbəb olur. Azərbaycanın dövlət başçısı öz müraciət və müsahibələrində dəfələrlə bəyan edib ki, Azərbaycanın digər ərazilərində olduğu kimi işğaldan azad olunmuş torpaqlarda da bütün dini və mədəni abidələr, ibadət evləri bərpa ediləcək, hər bir insanın inancına hörmətlə yanaşılacaq, sülh şəraitində birgəyaşayış təmin olunacaqdır. Tarix boyu Azərbaycanda firavan yaşayan və öz dini ayinlərini sərbəst şəkildə yerinə yetirən xristian pravoslav, katolik, Dağ yəhudiləri, Alban-udi xristian, aşkenazi-Avropa yəhudiləri və digər dini icmalarının rəhbərləri olaraq Azərbaycanın bu sülhpərvər siyasətini dəstəkləyir, tariximizin və mədəniyyətimizin bərpası sahəsində görüləcək möhtəşəm quruculuq işlərinə xeyir-dualar veririk. Biz, Azərbaycandakı dini konfessiya rəhbərləri xarici ölkələrin dövlət və hökumət başçılarına, beynəlxalq təşkilatların rəhbərlərinə, dini liderlərə və dünya ictimaiyyətinə müraciət edərək, onları ölkəmizdə və yaşadığımız bölgədə sülh, əmin-amanlıq və birgəyaşayışın bərqərar olmasına dəstək verməyə çağırırıq!

***Şeyxülislam Allahşükür PAŞAZADƏ***
Qafqaz Müsəlmanları İdarəsinin sədri

***ALEKSANDR***
Bakı və Azərbaycan Arxiyepiskopu

***Melih YEVDAYEV***
Azərbaycandakı Dağ yəhudiləri icmasının rəhbəri

***Aleksandr ŞAROVSKİ***
Bakıdakı Avropa yəhudiləri icmasının rəhbəri

***Şneor SEQAL***
Azərbaycan aşkenazi yəhudilərinin baş ravvini

***Robert MOBİLİ***
Alban-udi icmasının rəhbəri

# "Charlie Hebdo" jurnalına etiraz

İslamofob fəaliyyəti ilə tanınan, nifrəti, dini ayrı-seçkiliyi və zorakılığı təşviq edən "Charlie Hebdo" jurnalı ənənəsinə sadiq qalaraq növbəti dəfə Məhəmməd Peyğəmbər və Türkiyə Cümhuriyyətinin Prezidenti Rəcəb Tayyib Ərdoğandan bəhs edən olduqca çirkin karikatura dərc edib. Müsəlmanların müqəddəs hisslərini təhqir edən və bu cinayəti, həyasızlığı beynəlxalq ictimaiyyətə "söz azadlığı" kimi təqdim etməyə çalışan bu jurnala Türkiyə Diyanət İşləri Başqanlığı etirazını bildirib. Etirazda qeyd edilib:

"Hər zaman və hər fürsətdə söylədiyimiz kimi, bir daha ifadə edək ki, İslam sülh dini, onun elçisi Həzrət Muhəmməd də rəhmət peyğəmbəridir. Müsəlmanlar insan hüquqlarını, azadlıqlarını və ümumbəşəri dəyərləri mənimsəyən, hər cür şiddət və pis əməlləri rədd edən inanca sahibdirlər. Lakin son vaxtlar başda Fransa olmaqla Avropada İslama və müsəlmanlara qarşı təhqir və hücumların ciddi şəkildə artdığını görürük. "Charlie Hebdo" adlı jurnal da alçaldıcı nəşrləri ilə bir növ bu işə başçılıq edir. Adı çəkilən jurnal axırıncı nəşrində yenə Peyğəmbərimizdən və Türkiyə Cümhuriyyətinin prezidenti Rəcəb Tayyib Ərdoğandan bəhs edən olduqca çirkin karikatura dərc etmişdir.

Açıq şəkildə bildiririk ki, bu nəşr və edilənlər dünyadakı təxminən iki milyard müsəlmana qarşı böyük hörmətsizlikdir. Müqəddəs olana və vicdana qarşı işlənmiş bəşər cinayətidir. İnsan dəyərlərini saymayan dəhşətli əxlaqsızlıqdır. Hüququ tapdalayan böyük düşmənlikdir. İnsan şərəfinə və etiqad azadlığına qəsd edən mənfur siyasətdir. Beynəlxalq konvensiyaları pozan varvarlıqdır. İctimai və qlobal sülhü zədələyən məsuliyyətsiz davranışdır. İnsanlarda və cəmiyyətdə həyəcan yaradan məqsədyönlü və amansız təxribatdır. Xüsusilə vurğulayaq ki, yalan, iftira, təhqir, alçaltma, hədəfə alma, təhrik etmə kimi mövqe və davranışlar əsla azadlıq məfhumu ilə izah və ört-basdır edilə bilməz.

Beləliklə də, bəşəriyyətə ləkə olan bu mənfur jurnalı şiddətlə lənətləyirik. Fransanın məhkəmə orqanlarından dərhal qanunun tələblərini yerinə yetirmələrini gözləyirik.

Əlaqədar ölkələrin başçılarını müsəlmanların dəyərlərini və müqəddəslərini qorumaq, təhlükəsizliklərini təmin etmək, vətəndaşlıq hüquqlarının tələblərinə əməl etmək üçün vəzifələrini yerinə yetirməyə dəvət edirik.

Avropanın hüquqa və insan haqlarına inanan, inanca hörmət edən və ictimai əmin-amanlığa əhəmiyyət verən bütün ziyalılarını, alimləri, ictimai fəalları, qeyri-hökumət təşkilatlarını, mətbuat nümayəndələrini və sağlam düşüncəli hər kəsi bu aşkar çirkinliyə və hüquq pozuntularına qarşı sərt reaksiya verməyə, təşəbbüs göstərməyə çağırırıq. İnsana və inanca dəyər verən bütün din və inanc mənsublarının sərt mövqe sərgiləməklərini gözləyirik. Əks halda, adıçəkilən şəxs, qrup və qurumlar müsəlmanların nəzərində etibarlarını itirəcək və dərin təəssüfə səbəb olacaqlar.

Bir məsələni də dünya ictimaiyyətinə elan edirik ki, bu sistemli təhriklərə qarşı müsəlmanlar əsla qanunsuz yollara əl atmayacaq, sağlam düşüncə və ağılla davranaraq hüquqlarını, inanclarını və ümumbəşəri dəyərləri müdafiə etməyə davam edəcəklər. İnanırıq ki, insaf, vicdan, hüquq qalib gələcək, xeyirxahlıq və barış müvəffəq olacaqdır".

# Azərbaycanın tarix və mədəniyyət abidələri sırasında məscidlərin yeri

Azərbaycan əhalisinin böyük əksəriyyətini müsəlmanlar təşkil etdiyindən tarixin müxtəlif dövrlərində ayrı-ayrı yaşayış məntəqələrində möminlərin ibadəti üçün məscidlər tikilmişdir. Rəsmi statistikaya görə, Azərbaycan ərazisində ən qədim məscid hesab olunan Şamaxı "Cümə" məscidi 743-cü ildə inşa edilmişdir.

Tarixin müxtəlif dövrlərində dağıntılara məruz qalan "Cümə" məscidi sonradan təmir-bərpa olunmuşdur. Məscid sonuncu dəfə 1918-ci ilin Mart soyqırımı zamanı ermənilər tərəfindən yandırılaraq dağıdılmışdır. Prezident İlham Əliyevin Sərəncamına əsasən, Şamaxı "Cümə" məscidi sonuncu dəfə 2010-2013-cü illərdə restavrasiya olunmuşdur. 17 may 2013-cü il tarixində isə Prezident İlham Əliyevin və Qafqazın bütün din xadimlərinin iştirakı ilə məscidin açılış mərasimi keçirilmişdir.

Respublikamızın memarlıq abidələri sırasında məscidlər mühüm yer tutur. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 02 avqust 2001-ci il tarixli 132 saylı qərarına əsasən, ölkədə qeydə alınmış 6308 tarix və mədəniyyət abidəsindən 510-u məsciddir. Bu məscidlərin 47-si ölkə, 463-ü isə yerli əhəmiyyətli memarlıq abidəsidir.

Əhalisinin sayı ilə nisbətdə məscidlərin sayına görə birinci yerdə Ordubad şəhəri durur. Belə ki, 12 min nəfər əhalisi olan Ordubad şəhərində 21 məscid qeydə alınmışdır. Ölkə və yerli əhəmiyyətli memarlıq abidəsi olan məscidlərin şəhər və rayonlar üzrə təsnifatı aşağıdakı kimidir.

Ölkə əhəmiyyətli məscidlər:

Ağdam – 1, Bakı – 30, Bərdə - 1, Balakən – 1, Culfa – 1, Gəncə - 2, Hacıqabul -1, Qax – 2, Quba – 2, Masallı – 1, Ordubad – 1, Şamaxı – 1 ("Cümə"), Şuşa – 1.

Yerli əhəmiyyətli məscidlər:

Abşeron – 11, Ağdam – 4, Ağdaş – 4, Ağsu - 2, Ağcabədi – 1, Ağstafa – 6, Astara - 12, Bakı – 50, Balakən – 5, Bərdə - 2, Babək – 7, Cəbrayıl – 5, Cəlilabad – 1 (Hasıllı kənd məscidi), Culfa – 1, Füzuli – 16, Gəncə - 12, Goranboy – 2, Göyçay – 3, Xaçmaz – 4, İsmayıllı – 12, Qazax – 2, Qax – 16, Qəbələ - 4, Qobustan – 1, Quba 41, Qusar – 14, Qubadlı – 7, Laçın – 2, Lerik – 1 (Lüləkəran/Lüəkon kənd məscidi), Lənkəran – 32, Masallı – 49, Naxçıvan – 1, Neftçala – 1 (Xıllı qəsəbə məscidi), Oğuz – 5, Ordubad – 32, Sabirabad – 3, Salyan – 1, Sədərək – 1, Şamaxı – 2, Şəki – 13, Şəmkir – 3, Şuşa – 12, Tərtər – 4, Tovuz – 6, Zaqatala - 38, Zəngilan – 4.

Cənub bölgəsində ölkə əhəmiyyətli memarlıq abidəsi olan yeganə məscid Masallı rayonundakı Qızılağac kənd məscididir (XIX əsr, inv: 313). Qızılağac kənd sakinlərinin qənaətinə görə, kənddə məscid XVI əsrdə tikilmişdir.

Sovet dövründə Azərbaycanda ateizm, allahsızlıq ideologiyası hökm sürdüyündən məscidlər bağlanmış, ölkə ərazisində cəmi 17 məscid fəaliyyət göstərmişdir.

Ölkəmiz müstəqilliyini bərpa etdikdən sonra milli-mənəvi dəyərlərin inkişafı və qorunmasında mühüm rol oynayan məscidlər cəmiyyət həyatındakı yerini yenidən geri qaytarmış, qəzalı vəziyyətdə olan ibadət ocaqları bərpa olunmuş və yeniləri inşa edilmişdir. Bunun nəticəsi olaraq hazırda respublikamızda 2250-dən çox məscid vardır ki, bunun da 530-u cənub-şərq bölgəsində, konkret olaraq 32-si Astarada, 108-i Cəlilabadda, 83-ü Lənkəranda, 99-u Lerikdə, 140-ı Masallıda, 68-i isə Yardımlıda yerləşir.

***İldırım ŞÜKÜRZADƏ,***
Lənkəran rayonunun Havzava kənd tam orta məktəbinin müəllimi, tədqiqatçı-tarixçi

*P.S. Azərbaycanın şəhər və rayonlarının məscidləri üzrə ilk kitab 2019-cu ildə işıq üzü görmüşdür. "Lənkəran məscidləri" adlanan kitabın müəllifi İldırım Şükürzadədir.*

## İSLAM MƏDƏNİYYƏTİ PAYTAXTI - 2017

# Kampala

Uqanda Respublikası Afrikanın mərkəzində dənizə çıxışı olmayan ölkədir. Ekvatorun iki hissəyə böldüyü bu ölkə şimaldan Cənubi Sudan, şərqdən Keniya, qərbdən Konqo Demokratik Respublikası, cənub-qərbdən Ruanda və cənubdan Tanzaniya ilə həmsərhəddir. Ölkənin cənubunun bir hissəsini Keniya və Tanzaniya ilə paylaşdığı Viktoriya gölü əhatə edir. Konqo ilə sərhədin cənubunda Ruvenzori dağları yerləşir. Bu dağ silsiləsinin ən hündür zirvəsi Stenli dağındakı Marqarita zirvəsidir (5109 m). Şərqdə Keniya ilə sərhəddə olan Elqon dağının hündürlüyü isə 4322 m-dir.

Uqanda ekvatorda olsa da, ölkənin yüksək hündürlüyü səbəbindən iqlim mülayimdir. Ölkədə orta istilik 26 °C (maksimum 18 °C-31 °C, ən az 15 °C-23 °C), rütubət isə 70-100% arasındadır. Yağışlar dövrü mart-may aylarına təsadüf edir. Oktyabr-noyabr ayları isə qismən az yağıntılı olur. Yağıntısız dövr dekabr-fevral və iyun-avqust aylarıdır.

Uqanda Afrikanın ən çox göl və su hövzələri olan ölkələrindən biridir. Ona bəzən Afrikanın mirvarisi də deyirlər. Ərazisinə görə, Afrikada ən böyük göl olan Viktoriyanın (59,947 $km^2$) 45%-i Uqandanın, 6%-i Keniyanın, 49%-i Tanzaniyanın payına düşür. Viktoriya, həmçinin dünyanın ən böyük tropik gölü, Şimali Amerikadakı Yuxarı Göldən (Superior) sonra ikinci ən böyük şirin su gölü və ən böyük doqquzuncu kontinental gölüdür. Gölün orta dərinliyi 40 m-dir. Göl tədqiqatçı Con Henninq Spik tərəfindən kraliça Viktoriyanın şərəfinə adlandırılıb. Spik bu gölü Riçard Frensis Bertonla birgə 1858-ci ildə Nil çayının mənbəyini tapmaq üçün çıxdığı ekspedisiya zamanı aşkar edib. Bu ekspedisiya Kral Coğrafiya Cəmiyyəti tərəfindən maliyyələşdirilib. Regionda Viktoriyadan başqa, Uqandada Albert, Bisina, Bunyoni, Edvard, Corc, Kvaniya, Kyoqa, Mutanda, Nabuqa, Opeta, Maqadi, Vamali kimi məşhur göllər də var. Dünyanın əz uzun çayı olan Nilin iki əsas qollarından biri olan Ağ Nil (digəri Mavi Nil) mənbəyini Viktoriya gölündən götürdüyünü demək olar. Uqandada göllər birbiri ilə çaylar vasitəsi ilə birləşir. Bu çaylara Kidepo, Narus, Axva, Peycer, Ora, Kafu, Luqoqo, Sesibva, İşaşa və s. göstərmək olar. Uqandanın flora və faunası olduqca zəngindir.

Uqandanın ümumi ərazisi 241.550 $km^2$-dir ki, bunun da 199,810 $km^2$-i quru sahədir, əhalisi isə 45.741.000 nəfərdir. Uqanda əhalisinin təxminən 25.7% şəhərdə yaşayır.

Münbit ərazilərin çox olması Uqandada qədim insan məskənlərinin yaranmasına şərait yaradıb. Viktoriya gölünün və Kaqera çayı sahillərindən aşkarlanan qədim dövrə aid daş alətlər bunu deməyə əsas verir. Bu insan məskənlərinin tarixi təxminən 50.000-100.000 il bundan əvvələ qədər uzanır. Uqandada etnik müxtəlifliyin artması bu ərazilərə Afrikanın qərbindən Bantuların köçməsi ilə baş verib. Bantuların gəlişi ilə Uqandada ictimai və iqtisadi münasibətlər formalaşıb. Tarixi faktlara əsasən, Uqanda bir neçə krallıq olub ki, bunlardan bu günümüzə qədər gəlib çatanı Buqanda Krallığıdır. Uqanda dövlətinin adı Buqandadan götürülüb. Buqanda hazırda Uqanda dövlətinə daxil olan krallıqdır. XIV əsrdə Kato Kintu tərəfindən əsası qoyulmuş krallıq XVIII və XIX əsrlərdə Şərqi Afrikadakı ən güclü krallıq olub. Buqanda Uqandanın paytaxtı Kampala da daxil olmaqla ölkənin mərkəzi bölgəsindən ibarət olan Şərqi Afrikadakı ənənəvi krallıqların ən böyüyüdür.

1894-cü ildə Uqanda ingilis müstəmləkəsinə çevrilməsi ilə Buqanda da müstəqilliyini itirmişdir. 1962-ci ilin 9 oktyabrında Uqanda müstəqillik əldə etdi. Buqanda Uqandanın tərkibində bir krallıq oldu. Lakin 1966-cı ildə krallıq ləğv olunsa da, 1983-cü ildə yenidən bərpa olunan Buqandada konstitusiyalı monarxiyadır. Hazırda Uqandada dövlətin idarəetmə forması prezidentli respublikadır. Prezident həm dövlət, həm də hökumət başçısıdır. Prezident ona rəhbərlikdə kömək etmək üçün vitse-prezident və baş nazir təyin edir. Uqanda parlamenti 449 üzvdən ibarət olan Milli Məclisdir. Ölkənin hazırkı konstitusiyası 8 oktyabr 1995-ci ildə qəbul edilib.

Uqandada qəhvə, neft ixracı, metal və metal məhsulları, balıq, qarğıdalı, sement, tütün, çay, şəkər, dəri və dəri məhsulları, kakao, lobya, gülçülük və digər məhsullar ölkə iqtisadiyyatının əsas gəlir sahələridir. Son dövrlərdə Uqandada turizm inkişaf etməyə başlayıb. Milli parklar, qoruqlar, ənənəvi yerlər və təbii tropik meşələr ölkənin əsas turistik yerləri hesab edilir. 2013-cü ildə bu sahə 1.88 milyard ABŞ dolları gəlir gətirib. Ölkənin rəsmi valyutası Uqanda şillinqidir.

Uqandada mövcud olan etnik qrupların sayı çoxdur. Ona görə də böyük etnik müxtəlifliyə sahibdir. Əsas etnik qrupa əhalinin 16,9%-ni təşkil edən baqandadır. Bundan başqa, əhalinin digər hissəsini Nkole, Soga, Kiqa, Banyankore, Bakiqa, Lanqi, Açoli, Baqisu, Luqbara, Teso və başqa etnik qruplar təşkil edir. Ölkənin rəsmi dili ingilis və suahili dilidir. Suahili Tanzaniya, Keniya, Uqanda və Afrika İttifaqında istifadə edilən dillərdən biridir. Hazırda 80-100 milyon insan bu dildən istifadə edir. Uqanda əhalisinin təxminən 84% xristiandır. Xristianların əksəriyyəti katolik, protestant və pentakolistdir. Müsəlmanlar əhalinin 13-14%-ni təşkil edir və əksəriyyəti sünni məzhəbinə mənsubdur. Əhalinin qalan hissəsi isə yerli və digər dinlərə mənsubdur.


Kibuli məscidi

Uqandanın ən böyük şəhəri 1.6 milyon əhalisi olan paytaxt Kampaladır. Kampala antilop növü olan "impala" sözündən gəlir. Mənası "impala təpəsi" deməkdir. Kampalanın əsası 1890-cı ildə ingilis Şərqi Afrika Şirkətinin agenti Frederik Luqard tərəfindən burada qərargahın tikilməsi ilə qoyulub. Viktoriya gölünün sahilində yerləşən bu şəhərdə müasir binalar, eləcə də tarixi turistik yerlər azdır, lakin XX əsrlərə aid teatr, muzey eləcə də ibadət yerlərini görmək olar. Bunlara "Uqanda Muzeyi" (1908), "Uqanda Milli Mədəniyyət Mərkəzi" (1959), Namirembe Kilsəsi (1919), Rubaqa Kilsəsi (1925), Bəhai Məbədi (1958), Uqanda Milli məscidi (Qəddafi məscidi-2006) və s. misal göstərmək mümkündür.

Uqandanın ən böyük məscidi olan Milli Məscidin inşası 2006-cı ildə tamamlanmışdır. Müəmmar Qəddafinin maliyyə dəsti ilə tikilən məsciddə eyni vaxtda 15000 nəfər ibadət edə bilər. Burada, həmçinin Uqanda Müsəlmanları Ali Şurasının baş ofisi yerləşir. Məscid 2013-cü ildə Qəddafinin ölümündən sonra Uqanda Milli Məscidi adlandırılmışdır. Bundan əlavə, Kampalada Tövhid məscidi, Naquru məscidi, Kansanga məscidi, Davudi Bohra məscidi, əl-Qüds məscidi, Kabalaqala məscidi, Şazir məscidi, Kamvokya məscidi, Ağa Xan məscidi, Kasuja məscidi, Kivatule məscidi, Kibuli məscidi, Amina məscidi, Nakasero məscidi və başqa məscidlər fəaliyyət göstərir.

Şəhər 2017-ci ildə ISESCO tərəfindən İslam Mədəniyyətinin Paytaxtı elan edilmişdir.

***Tural VƏLİZADƏ***

# Erməni-qriqoryan Kilsəsi və yaxud dini-etnik ekstremizm yuvasının fitnəkarlığı



**Vüqar Səlimov,**
*Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin əməkdaşı, fəlsəfə üzrə fəlsəfə doktoru*

Mütərəqqi dini dəyərlərdə sülh və insanların sivil birgəyaşayış şəraitində yaşamasına böyük əhəmiyyət verilir və onların təmin olunmasında din xadimlərinin üzərinə mühüm vəzifələr düşür. İslam, Xristianlıq, Yəhudilik, Buddizm kimi dünya dinlərinin müqəddəs kitablarında dini dözümlülük və insanpərvərlik təşviq edilir, fərqli dinlərə qarşı düşmənçiliyin yolverilməzliyi göstərilir. Bunun əksinə olaraq, Erməni-qriqoryan Kilsəsinin katolikosu II Qaregin dini-etnik ekstremist mövqe tutaraq erməniləri Azərbaycanla müharibədə iştirak etməyə çağırır ki, bu da təsadüfü deyildir. Çünki tarixən erməni katolikoslarının fəaliyyətinin əsasında erməni millətçiliyi (erməniçilik) və müstəsnalığı, eqoizmi, türk-müsəlman əhalisinə qarşı düşmənçilik dayanmışdır ki, II Qaregin də öz sələflərinin bu yolunu davam etdirir. Əgər Erməni-qriqoryan Kilsəsinin yarandığı vaxtdan göstərdiyi fəaliyyətə nəzər salsaq görərik ki, onun əsas məqsədi dini-etnik münaqişələr yaratmaq, erməni terrorizmini dəstəkləmək, türk-müsəlman əhalisini etnik təmizləməyə və deportasiyaya məruz qoymaq olmuşdur. Erməni Kilsəsinin göstərişi ilə törədilmiş terror aktları xüsusi qəddarlığı ilə fərqlənmiş, bunun nəticəsində uşaqlar və qadınlar da daxil olmaqla mülki əhali kütləvi qətliama və soyqırımına məruz qalmış, yaşayış məskənləri, mədəni və dini abidələr məhv edilmişdir.

Hələ erməni dövlətinin mövcud olmadığı dövrdə Kilsə erməni icmalarının yalnız dini deyil, həm də siyasi himayəçisi vəzifəsini yerinə yetirirdi. Erməni Kilsəsi tarixi şəraitin dəyişməsindən asılı olaraq öz mövqeyini möhkəmləndirmək üçün böyük hiyləgərliklə daim hansısa xarici qüvvəyə sığınırdı. Belə ki, xilafət dövründə o, ərəb xəlifələri ilə sövdələşmə aparıb Bizansa qarşı çıxdı və yaranmış vəziyyətdən istifadə edib Qafqaz Albaniyasının dağlıq ərazilərində yaşayan alban-xristian əhali arasında qriqoryanlığı yaymağa başladı.

Xilafət dövründə Erməni-qriqoryan Kilsəsinin dini təsir dairəsi Cənubi Qafqaza doğru genişləndikdən sonra tarixin sonrakı mərhələlərində bu bölgə ermənilərin törətdiyi dini-etnik toqquşmalar və soyqırımları məkanına çevrildi. Ərəb xilafətinin zəifləməsindən sonra Erməni Kilsəsi Azərbaycan dövlətləri olan Qaraqoyunlu, Ağqoyunlu və Səfəvilərə, sonralar isə Osmanlı imperiyasına sığındı. Qaraqoyunlu dövlətinin müxtəlif etnoslara və dinlərə dözümlü münasibətindən sui-istifadə edən Erməni Kilsəsi 1441-ci ildə öz mərkəzini qədim Azərbaycan torpağı olan Eçmiədzinə köçürdü. Ağqoyunlu və Səfəvi hökmdarları da Qaraqoyunlu dövlətinin siyasətini davam etdirərək Erməni Kilsəsinə tolerant münasibət göstərdilər. Lakin çox keçmədi ki, bu Kilsə həmin dövlətlərə də xəyanət etməyə başladı.

Erməni Kilsəsinin satqınlığı çar Rusiyası Cənubi Qafqazda işğalçılıq müharibələrinə başladıqda bir daha özünü göstərdi. Kilsənin təşkilatçılığı ilə ermənilər silahlı dəstələr yaradıb Rusiya qoşunlarının tərkibində Azərbaycana və Osmanlı dövlətinə qarşı hərbi əməliyyatlara qoşuldu. Çar Rusiyası ermənilərə dəstək verərək onları Osmanlı dövlətinin və İranın ərazisindən kütləvi şəkildə Şimali Azərbaycana, xüsusilə İrəvan, Qarabağ, Şirvan, Bakı, Gəncə və Naxçıvan xanlıqlarının ərazilərinə köçürdü. 1813-cü il Gülüstan və 1828-ci il Türkmənçay müqavilələri ilə Rusiya imperiyası Azərbaycan torpaqlarını işğal etdikdən sonra erməni katolikosları yaranmış vəziyyətdən yararlanmağa çalışıb çar Rusiyasına bölgədə sədaqətlə xidmət edəcəklərinə söz verdilər. Həmin dövrdə Erməni Kilsəsinin əsas məqsədi Alban Apostol Kilsəsinin irsini ələ keçirmək idi ki, buna da hiyləgərcəsinə nail oldu. Belə ki, I Nikolayın 1836-cı il 11 mart tarixli Fərmanı ilə Alban Apostol Kilsəsinin maddi-mədəni irsi Erməni-qriqoryan Kilsəsinə verildi. Rusiya imperatorunun bu addımı Cənubi Qafqazdakı Alban mədəniyyətinin ermənilər tərəfindən məhv edilməsinə şərait yaratdı. Alban kilsəsi memarlığının daxili və xarici tərtibatı, divar yazıları və ikonalar erməniləşdirildi. Alban kilsəsindəki əlyazmaların orijinallarının hamısını erməni katolikosları məhv etdilər və onlardan yalnız az bir qismi erməni dilinə tərcümə olundu. Erməni Kilsəsinin saxtakarlığının nəticəsidir ki, Alban kilsələrində, demək olar ki, alban dilində yazı nümunəsi qalmamışdır.

XIX əsrin əvvəllərindən başlayaraq 1873-cü ilədək çar Rusiyası Cənubi Qafqaza, əsasən, Şimali Azərbaycan torpaqlarına 334.242 nəfər erməni köçürmüşdü. 1886-cı ildə Cənubi Qafqaza köçürülən ermənilərin sayı 690.615 nəfərə, 1897-ci ildə 786.447 nəfərə, 1916-cı ildə isə 1.211.145 nəfərə çatdırıldı. Bununla bağlı rus alimi N.N.Şavrov 1911-ci ildə yazırdı: "Zaqafqaziyada yaşayan 1 milyon 300 min nəfər erməninin 1 milyonu yerli deyildir. Onlar həmin vilayətə bizim tərəfimizdən köçürülüblər".

Ermənilərin Azərbaycan torpaqlarına köçürülməsinin əsas təşkilatçılarından biri olan A.S.Qriboyedov Rusiya imperatoruna yazırdı: "Əlahəzrət, olmaya mərkəzi rus torpaqlarında ermənilərin məskunlaşmasına icazə verəsiniz. Onlar elə tayfadırlar ki, bir neçə on il yaşadıqdan sonra dünyaya hay-küy salacaqlar ki, bura bizim qədim dədə-baba torpaqlarımızdır". Beləliklə, çar Rusiyası Erməni-qriqoryan Kilsəsi ilə sövdələşməyə gedərək Cənubi Qafqazın dini-etnik mənzərəsində məqsədli şəkildə dəyişiklik yaratdı, xüsusilə tarixi Azərbaycan torpaqlarında biləkdən erməniləri məskunlaşdırdı.

Erməni terror təşkilatlarının meydana gəlməsində və formalaşmasında Erməni-qriqoryan Kilsəsi birbaşa iştirak etmişdir. XIX əsrdə çar Rusiyası, Fransa və İngiltərə regionun gələcəyi ilə bağlı geostrateji planlarının həyata keçirilməsi üçün Erməni Kilsəsindən vasitə kimi istifadə edirdi. Beyinləri "Böyük Ermənistan" xülyası ilə zəhərlənmiş erməni millətçiləri XIX əsrin sonlarında Erməni-qriqoryan Kilsəsinin xeyir-duası ilə daha mütəşəkkil fəaliyyətə başladılar. 1885-ci ildə yaradılmış "Armenakan" adlı təşkilatın əsas məqsədi Vanda və onun ətrafında yaşayan müsəlman-türk əhalisinə qarşı terror və təxribatlar törətmək olmuşdur. 1886-cı ildə yaradılmış "Qnçak" ("Zəng") təşkilatı Osmanlı dövlətinə qarşı terror vasitəsilə mübarizə aparacağını bildirirdi. 1890-cı ildə yaradılmış Daşnaksütyun Partiyası "Böyük Ermənistan" mifinin reallaşmasına nail olmağı əsas məqsədi elan edərək Azərbaycana və Türkiyəyə qarşı çoxsaylı terror hadisələri törətməyə başladı.

"Daşnaksütyun"un rəhbərliyi Qafqazda partiyanın fəaliyyətini gücləndirmək məqsədilə 1905-ci ilin oktyabrında "Qafqaz layihəsi"ni qəbul etmişdir. 1905-1907-ci illərdə daşnaklar Erməni Kilsəsinin çağırışı ilə azərbaycanlılara qarşı kütləvi qırğın törətdilər. Həmin dövrdə ermənilərin terrorçu əməlləri daha da azğınlaşmağa başladı. Ermənilərin qanlı cinayətləri, demək olar ki, Azərbaycanın bütün ərazisini əhatə etdi. Nəticədə minlərlə azərbaycanlı vəhşicəsinə öldürüldü və yüzlərlə yaşayış məntəqəsi dağıdıldı. Bu qətliamları törədənləri Erməni-qriqoryan Kilsəsi silah-sursatla təmin etmişdir.

Erməni Kilsəsi xarici havadarlarının köməyi ilə qeyri-müsəlmanlara qarşı dini-etnik düşmənçiliyin yaranmasında xüsusi canfəşanlıq göstərirdi. Erməni patriarxı Levon (Gevond) Turyan bununla bağlı bildirirdi: "Uzun müddət dini icmalar erməni inqilabçı partiyalarının mərkəzi idi, burada ən dəhşətli proqramlar hazırlanmışdı. Dini mərkəzlər danışıqlarla və yazı ilə xalqı üsyana çağırırdı. Çıxışlarda yüksək sözlər və İncilin doktrinaları xatırlanmırdı. Sədaqət və düzgünlük yerinə üsyana, insanlıq yerinə nifrətə və qisasa, əxlaq yerinə alçaqlığa və rüsvayçılığa çağırışlar eşidilirdi". Məlumdur ki, L.Turyanı həmin mövqeyinə görə 1933-cü ildə "Daşnaksütyun" terrorçuları Erməni Kilsəsinin göstərişi ilə Nyu-Yorkda qətlə yetirmişdir.

Ermənilərin azərbaycanlılara qarşı terrora əl ataraq kütləvi qırğın törətməsinin növbəti mərhələsi 1918-1920-ci illəri əhatə edir. Həmin dövrdə çar Rusiyası tənəzzülə uğramışdı və dünyanın geosiyasi mənzərəsində ciddi dəyişikliklər baş verirdi. Erməni silahlı birləşmələri Cənubi Qafqazda azərbaycanlıların məskunlaşdığı bütün yaşayış məntəqələrinə basqınlar edir, dinc əhaliyə qarşı xüsusi qəddarlıq göstərirdilər. Erməni-daşnak quldur dəstələri Şərqi Anadoluda, Şimali və Cənubi Azərbaycan ərazilərində qanlı faciələr törətdilər. Naxçıvan, İrəvan, Zəngəzur, Qarabağ, Urmiya, Salmas, Xoy, Maku və digər yaşayış məntəqələrində yüz minlərlə azərbaycanlı, o cümlədən uşaqlar, qadınlar və qocalar xüsusi amansızlıqla qətlə yetirildi. 1918-ci ildə daşnak S.Şaumyan və Erməni-qriqoryan Kilsəsinin birgə təşkilatçılığı ilə Azərbaycanın əksər bölgələrində, o cümlədən Bakı, Şamaxı, Göyçay, Kürdəmir, Quba, Salyan, Lənkəran və başqa yerlərdə azərbaycanlılar soyqırımına məruz qaldı.

"Böyük Ermənistan" mifi, qondarma "erməni soyqırımı" haqqında iddialar erməni kilsəsinin təbliğatında əsas yer tutur ki, bu da erməni terrorçularını daim Azərbaycanın və Türkiyənin ictimai-siyasi xadimlərinə qarşı qanlı aksiyalar törətməyə sövq etmişdir. "Daşnaksütyun"un 1919-cu ildə keçirilmiş IX qurultayında "Nemesis" ("Cəza") xüsusi terror qrupunun fəaliyyətə başlaması haqqında qərar qəbul edilmişdir. "Nemesis"in siyahısına Azərbaycanın və Türkiyənin qətlə yetirilməsi nəzərdə tutulan 650 siyasi və dövlət xadiminin adı daxil edilmişdi. Bu qrupun həyata keçirdiyi terror nəticəsində Azərbaycan Xalq Cümhuriyyətinin görkəmli xadimləri Nəsib bəy Yusifbəyli, Fətəli xan Xoyski, Həsən bəy Ağayev və b. qətlə yetirilmişdir. Osmanlı hökumətinin daxili işlər naziri və daha sonra hərbi naziri olmuş Tələt Paşa 1921-ci il martın 15-də Berlində öldürülmüşdür.

Erməni Kilsəsi həmişə bir-biri ilə düşmən olan ölkələr arasında manevrlər edərək öz məqsədinə çatmağa çalışmışdır. Bu kilsə müxtəlif tarixi dövrlərdə çar Rusiyası, Böyük Britaniya və Fransadan dəstək almışdır. Həm SSRİ, həm də Hitler Almaniyası ilə eyni vaxtda əməkdaşlıq etmişdir. II Dünya müharibəsində Erməni Kilsəsinin tövsiyəsi ilə erməni terror təşkilatları Almaniyada faşist rejimi ilə sıx əməkdaşlıq etmişlər. Bu məqsədlə hətta faşist Almaniyasında "Erməni milli şurası" təşkil olunmuşdur.

Erməni katolikosları çar Rusiyası dövründə olduğu kimi, SSRİ dövründə də Azərbaycana qarşı əsassız ərazi iddialarından əl çəkməmişdir. Məsələn, 1956-cı il mayın 12-də erməni katolikosu II Vazgen Moskvada SSRİ Nazirlər Sovetinin sədri Nikolay Bulqaninlə görüşü zamanı ona iki məktub vermişdir. Həmin məktublarda Azərbaycanın torpaqları hesabına Ermənistan ərazisinin genişləndirilməsi tələbi irəli sürülmüşdür. Məktublarda Şimali Qafqaz, Orta Asiya, Azərbaycan və Gürcüstanda yaşayan ermənilərin mənəvi həyatının "yaxşı olmadığı" barədə qeyri-obyektiv məlumatlar verilmişdir.

davamı səh. 13

# Nic qəsəbəsindəki Alban kilsəsi Heydər Əliyev Fondu tərəfindən əsaslı təmir və bərpa edilərək istifadəyə verilib

Qədim Qafqaz Albaniyasının paytaxtı olan Qəbələnin Nic qəsəbəsindəki Alban kilsəsi Heydər Əliyev Fondu tərəfindən əsaslı təmir və bərpa edilərək istifadəyə verilib.

Noyabrın 7-də keçirilən mərasimdə Heydər Əliyev Fondunun nümayəndələri, rayonun rəhbər şəxsləri, Alban-udi dini icmasının üzvləri, Azərbaycanda yaşayan xristianlar iştirak ediblər.

Heydər Əliyev Fondunun əməkdaşı Zəhra Hacıyeva bildirib ki, kilsənin Fondun "Tolerantlığın ünvanı-Azərbaycan" layihəsi çərçivəsində həyata keçirilən təmir və bərpası maddi-mədəni irsə, tarixi abidələrə verilən dəyərin göstəricisidir. Onun sözlərinə görə, layihə çərçivəsində abidələrin təmir-bərpası işləri Azərbaycanla yanaşı, Fransa, İtaliya, Rusiyanı da əhatə edir. Fond bu ölkələrdə də bir çox tarixi abidələrin, kilsələrin təmir-bərpasını həyata keçirib, hazırda da edir. Heydər Əliyev Fondu tərəfindən görülən bu işlər bir daha Azərbaycanın multikultural dövlət olduğunu göstərir. Z.Hacıyeva vurğulayıb ki, Qarabağın işğaldan azad olunan ərazilərinə baxdıqda ermənilərin tarixi abidələrə qarşı vandalizm aktları törətməsinin, məscidləri dağıtmasının şahidi oluruq. Azərbaycan dövləti isə kilsələri təmir edərək gələcək nəsillərə çatdırmağa çalışır: "Heydər Əliyev Fondu bu kilsənin təmirinə 2019-cu ildə başlayıb, bərpa işləri bu gün başa çatdırılaraq istifadəyə verilib. Bu, Nic qəsəbəsində Heydər Əliyev Fondu tərəfindən təmir edilən ikinci kilsədir. 2006-cı ildə udilərin kompakt şəkildə yaşadığı Nic qəsəbəsində "Çotari" Alban-udi kilsəsi təmir edilmişdi. Tolerantlığın kiçik modeli olan Nic qəsəbəsində hazırda 3 kilsə, 2 məscid var, xristianlarla müsəlmanlar bir yerdə həmişə mehriban yaşayıblar".

Alban-udi dini icmasının sədri Robert Mobili bildirib ki, bu gün tarixi gündür, Qəbələdə Müqəddəs Məryəm Ana kilsəsi təmir və bərpa edildikdən sonra istifadəyə verilir: "Bu, Azərbaycan həqiqətidir. Tarixi həqiqət bu gün bərpa olunur. XII əsrdə təməli qoyulan, XVIII əsrdə istifadəyə verilən bu Alban-udi kilsəsi ermənilərin tabeliyinə keçmişdi. Təzyiq və təsirlərdən sonra 1836-cı ildə Alban Apostol Kilsəsi ləğv edilmiş, onun maddi və mənəvi irsi ermənilərin Qriqoryan Kilsəsinin təsiri altında erməniləşdirilmiş, sənədlər, arxiv materialları, lövhələri dəyişdirilərək saxtalaşdırılmışdı. İndi udilərin tarixi həqiqəti bərpa olunur. Bu gün kilsədə birinci duamız Qarabağın erməni işğalından azad edilməsi uğrunda döyüşən Azərbaycan əsgəri üçün oldu. Biz çox sevinirik ki, Qarabağdakı şəhərlər və kəndlər erməni işğalından azad edilir. Ermənilər Qarabağda İslamla bağlı, Qədim Qafqaz Albaniyası ilə bağlı tarixi məhv ediblər. Qarabağdakı kilsələr alban xristianlarına məxsusdur, sonradan ermənilər onları öz adlarına çıxıblar. Qarabağdakı tarixi alban məbədlərinin böyük bir qismi ermənilər tərəfindən qriqoryanlaşdırılıb. Biz udilər Alban Apostol Kilsəsinin mənəvi varisləri olaraq hazırda Qəbələ və Oğuzdakı alban məbədlərində ibadət etdiyimiz kimi, işğal altındakı alban kilsələrində, o cümlədən Laçındakı Ağoğlan, Kəlbəcərdəki Gəncəsər, Ağdərədəki Müqəddəs Yelisey və onlarla digər belə məbədlərdə ibadət edəcəyimiz günləri səbirsizliklə gözləyirik".



Robert Mobili qeyd edib ki, Xristianlıqda heç bir din xadimi müharibəyə, döyüşə çağırış edə bilməz. O bildirib ki, Xristianlıqda 10 qadağa var: "Altıncı qadağa belədir: "Öldürmə!" Erməni kilsəsində əlində silah tutaraq orduya çağırış edən, insanları öldürməyə dəvət edən din xadimlərinin bu hərəkəti xristian dininə ziddir".

Mərasim iştirakçıları təmir-bərpadan çıxmış kilsə ilə tanış olub, dini ayinləri icra edib, dualar oxuyublar.

# Erməni-qriqoryan Kilsəsi və yaxud dini-etnik ekstremizm yuvasının fitnəkarlığı

əvvəli səh. 12

Erməni katolikosu Azərbaycanın Dağlıq Qarabağ, Naxçıvan MSSR və Gürcüstanın Axalkalaki bölgəsində yaşayan ermənilərin problemlərlə üzləşdiyini bildirmiş və bu ərazilərin Sovet Ermənistanına verilməsini təklif etmişdir. II Vazgen demişdir ki, erməni diasporu hər il 30-40 min erməninin xaricdən Ermənistana köçürülməsi üçün sovet hökumətindən repatriasiya proqramı hazırlamağı xahiş edir: "Təbii ki, onlara müvafiq ərazinin verilməsi və proqramın həyata keçirilməsi məqsədilə yaşayış evlərinin tikilməsinə xeyli vəsait, ləvazimat lazımdır". Göründüyü kimi, sağalmaz millətçilik və dini şovinizm xəstəliyinə yoluxmuş ermənilər həmişə regionda qonşu xalqlara qarşı əsassız ərazi iddiaları irəli sürməklə münaqişələr yaratmağa çalışmışlar. Həm Eçmiədzindəki kilsə və onun tabeliyində olan kilsələr, həm də Livandakı erməni katolikosluğu ermənilərin dini-etnik separatçı hərəkətlərini ört-basdır etməyə çalışmışdır.

1970-ci illərin əvvəllərində yaradılan ASALA terror təşkilatının əsas məqsədi "erməni soyqırımı"nın dünya ictimaiyyəti tərəfindən tanınmasına nail olmaqdan və türklərə qarşı terror aktları törətməkdən ibarət olmuşdur. Digər erməni terror təşkilatları kimi ASALA-nın da fəaliyyətini Erməni Kilsəsi istiqamətləndirir. 1975-1985-ci illərdə ASALA-nın terror aktları nəticəsində 42 türk diplomatı qətlə yetirilmişdir. Ümumiyyətlə, 1972-1991-ci illərdə erməni terrorçuları tərəfindən Avstriya, Fransa, Yuqoslaviya, İsveçrə, Avstraliya, Belçika, Bolqarıstan, Danimarka, İspaniya, ABŞ və s. ölkələrdə türk diplomatları, siyasətçiləri və biznesmenlərinə qarşı 300-dən çox terror aktı törədilmişdir.

Terrorizmə dəstək vermək, bütün erməniləri qondarma "erməni soyqırımı"na görə qisasa çağırmaq, erməni terror qruplaşmalarına yerinə yetirmələri üçün cinayət planları hazırlamaq, onlara maddi yardım göstərmək, tarixi hadisələri saxtalaşdırmaq, erməni xalqının "qədimliyi" və "əzabkeşliyi" haqqında müxtəlif miflər yaratmaq erməni kilsəsinin fəaliyyətində xüsusi yeri tutur. 1987-ci ildə Eçmiədzindəki Erməni Kilsəsinin katolikosu I Vazgen ABŞ-a və Kanadaya səfərində orada yaşayan ermənilərlə görüşü zamanı "Böyük Ermənistan" naminə bütün erməniləri birləşməyə, dünya ermənilərini qondarma "erməni soyqırımı"nın BMT tərəfindən tanınmasına nail olmağa çağırırdı. Erməni katolikosunun bu cür irqçi və dini-ekstremist çağırışlarının nəticəsi idi ki, bir ildən sonra kilsənin fəal dəstəyi ilə Ermənistanın ərazisindən 250 mindən çox azərbaycanlı deportasiya olundu və bununla da ermənilərin Azərbaycana qarşı işğalçılıq planları açıq mərhələyə keçdi. Hətta Erməni Kilsəsi, onun təmsilçiləri azərbaycanlılara qarşı hazırlanan və törədilən terror aktlarında bilavasitə iştirak etməyə başladılar. Məsələn, 1988-ci ilin iyun ayında Makaravan monastırının baş keşişi Stepan üç butulka fitilli yandırıcı və əldəqayırma fin bıçağı ilə Bakıda milis tərəfindən saxlanılmışdı. Bundan başqa, ermənilər Azərbaycanın ərazisindəki erməni kilsələrindən silah anbarı kimi istifadə edirdi. Azərbaycanın keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin Əsgəran rayonunun Kılıçbak kəndindəki Erməni Kilsəsində 6 minaatan, 16 əldəqayırma mina, 130 əldəqayırma əl qumbarası və s. aşkar olunmuşdu. Qarşısına Azərbaycandan Dağlıq Qarabağı qoparmaq məqsədini qoymuş Ermənistan sovetlər ittifaqının süqutundan istifadə edərək işğalçılıq siyasəti həyata keçirməyə başladı. Bu siyasətin nəticəsində Azərbaycanın ərazisinin 20 faizi Ermənistan tərəfindən işğal olundu, 1992-cı il fevralın 25-dən 26-na keçən gecə ermənilər XX əsrin ən qanlı cinayətlərindən biri olan Xocalı soyqırımını törətdi.

Ermənilər nəinki Azərbaycan, Türkiyə və Gürcüstana qarşı ərazi iddiaları irəli sürür, eləcə də Rusiya Federasiyasının daxilində etnik separatizmə əl atmaq da onların niyyətlərindən biridir. Belə ki, Şimali Qafqazda yaşayan ermənilər 1993-cü ildə Erməni-qriqoryan Kilsəsinin xeyir-duası ilə "Milli azadlıq cəbhəsi" adlı təşkilat yaradıb, Rusiya və Ermənistan prezidentlərinə, ABŞ senatına və BMT-yə, Ermənistandan kənarda yaşayan ermənilərə, habelə Rostov vilayəti, Stavropol və Krasnodar diyarlarının rəhbərlərinə müraciət etmişlər. Onlar Rusiyanın Rostov vilayəti, Stavropol və Krasnodar diyarlarının ərazisində erməni muxtariyyətinin yaradılması tələbini irəli sürmüşdülər. Həmin dövrdə Rusiya KİV-i ermənilərin "Milli azadlıq cəbhəsi"nin iclasları barədə məlumat yayaraq bildirmişdir ki, təşkilatın tədbirlərində Şimali Qafqaz torpaqlarının Ermənistana məxsus olduğuna dair "tarixi fakt"lara əsaslanan materialların əvvəlcə yerli mətbuatda, sonra isə vilayət və respublika qəzetlərində müntəzəm şəkildə dərc edilməsi barədə qərar qəbul olunmuşdur.

1993-cü ilin sentyabr ayında Livandakı iki erməni kilsəsində erməni partiyalarının, həmçinin PKK və ASALA terror təşkilatları rəhbərlərinin iştirakı ilə 150 nəfər erməni gənci ilə görüş keçirilmişdir. Həmin tədbirdə bildirilmişdir ki, Ermənistanın ərazisi Azərbaycanın Dağlıq Qarabağ regionundakı döyüş əməliyyatları nəticəsində genişlənir və "qədim erməni torpaqlarının azad olması üçün" Ermənistana xaricdən mənəvi, maliyyə və texniki dəstək gücləndirilməlidir. Qeyd edilmişdir ki, Türkiyənin ərazisini parçalayaraq onun bir hissəsində kürd dövləti yaratmalı, digər hissəsi isə Ermənistana birləşdirilməlidir. 2002-ci ildə Rumıniyadakı erməni dini mərkəzində keçirilən tədbirdə də ermənilər təcavüzkar planlarını müzakirə etmiş, Azərbaycana və Türkiyəyə qarşı yeni terror aktlarının həyata keçirilməsini qərara almışdılar. Bundan əlavə, dünyanın bir çox ölkələrindəki erməni ictimai birlik və fondlarının fəaliyyətlərinin əlaqələndirilməsində də Erməni Kilsəsi yaxından iştirak edir.

Erməni kilsəsi bir tərəfdən erməniləri dünyaya məzlum görkəmdə tanıtmağa səy göstərir, digər tərəfdən başqa dövlətlərə qarşı ərazi iddialarının irəli sürülməsinin, türk-müsəlman əhalisinə qarşı qanlı terror aktlarının həyata keçirilməsinin təşəbbüskarı kimi çıxış edir. Erməniçiliyin faşizmi təbliğ edən tezisləri də erməni katolikosları tərəfindən hazırlanır. Erməni Kilsəsinin Azərbaycana və Türkiyəyə qarşı dini-etnik ekstremizmi təşkil etməsinə, terrorizmə maddi və mənəvi dəstək verməsinə dair saysız-hesabsız faktlar mövcuddur. Erməni katolikoslarının həmişə dini-etnik şovinizmi təbliğ etməsi regionda sülhün və sabitliyin təmin olunmasına maneçilik törətmişdir ki, bu vəziyyət indi də davam edir.

Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə sentyabr ayının 27-dən başlanan müharibə xalqımızın şanlı qələbəsi ilə başa çatdı. Cəmi 44 gün davam edən bu savaşda işğal altında olan tarixi torpaqlarımız azad edildi. Bu müharibənin getdiyi günlərdə Erməni-qriqoryan Kilsəsinin başçısı II Qaragin yenə də fitnəkar çağırışları ilə "fərqləndi". Ancaq onların fitnəsi iflasa uğradı.

# Bakı və Azərbaycan Yeparxiyasının arxiyepiskopu Prezident İlham Əliyevə məktub ünvanlayıb

Bakı və Azərbaycan Yeparxiyasının arxiyepiskopu Aleksandr İşein Prezident İlham Əliyevə məktub ünvanlayıb.

Məktubda deyilir:

"Ali həzrətləri, çox hörmətli cənab Prezident.

İcazə verin, Sizi işğal olunmuş torpaqların azad edilməsində Azərbaycan Ordusunun qazandığı zəfərlər və Qarabağın ürəyi qədim Şuşa şəhərinin işğaldan qurtarılması münasibətilə təbrik edim.

Burada yaşadığım uzun illər ərzində Azərbaycan mənim ikinci Vətənim olub. Mən həmişə öz qüvvəm və imkanlarım daxilində çalışmışam ki, dünya ictimaiyyəti Azərbaycanı əsas prioritetlərin qarşılıqlı anlaşma və qarşılıqlı hörmət olduğu, "multikulturalizmin Azərbaycan modeli"nin isə ölkənin daxili və xarici siyasətinin başlıca istiqamətlərindən biri səviyyəsinə qaldırıldığı dövlət kimi tanısın.

Məruz qaldığım çətin həyat sınağının öhdəsindən gəlməyimdə göstərdiyiniz qayğı və dəstəyinizə görə Sizə dərin minnətdarlığımı bildirirəm.

Möhtərəm cənab Prezident, Uca Tanrının öz lütfünü Sizin, yaxınlarınızın və bütün Azərbaycanın üzərindən əskik etməməsini diləyirəm.

Qarabağ Azərbaycandır!"

# "Qələbəyə görə Allaha təşəkkür messası" keçirilib

Bakıdakı Rus Pravoslav Kilsəsində "Qələbəyə görə Allaha təşəkkür messası" keçirilib.

Ayinlərdə Azərbaycanın döyüş meydanında qazandığı parlaq qələbədə şücaət göstərən əsgər və zabitlərimizin, torpaqlarımızın azadlığı uğrunda canından keçən şəhidlərimizin ruhuna dualar oxunub.

Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının arxiyepiskopu Aleksandr İşein qeyd edib ki, Azərbaycan xalqı öz tarixinin ən mühüm qələbələrindən birini qazanıb, 30 ilə yaxın işğal altında qalan torpaqlarını azad etməyə müvəffəq olub. Aleksandr İşein Bakı və Azərbaycan Yeparxiyası adından Prezident İlham Əliyevi təbrik edib.

Onun sözlərinə görə, nəinki Azərbaycanın, bütün Cənubi Qafqazın tarixində yeni bir mərhələ başlayır: "Ölkəmizin tarixi qələbəsi, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli regionun yenidən çiçəklənməsinə böyük stimul verəcək". A.İşein bildirib ki, hərbi əməliyyatlar dövründə Azərbaycanda birlik, həmrəylik nümayiş edilib: "Qələbəmiz mübarək! Bu, tarixə Vətən Müharibəsi kimi yazıldı. Ötən əsrin sonu, bu əsrin əvvəllərində Azərbaycan xalqı böyük itkilər verdi. Azərbaycan xalqı Qarabağı itirdi, Xocalı faciəsi yaşandı, yüzlərlə azərbaycanlı öz doğma ocağından didərgin düşdü. Ciddi iqtisadi böhranlar yaşandı, müharibə hər sahəyə sərt üzünü göstərdi. Biz o dövr üçün baş verən hadisələri Birinci Qarabağ müharibəsi kimi yaşadıq. Hesab edirəm ki, Azərbaycan dövlətinin



qətiyyəti, əsgər və zabitlərimizin yüksək vətənpərvərliyi, igidliyi və yenilməzliyi nəticəsində işğala son qoyuldu. Bütün bunlar böyük qələbə ilə nəticələndi. İkinci Qarabağ müharibəsi Azərbaycanın qələbəsi və Ermənistanın uğursuzluğu ilə başa çatdı. Qarabağ öz doğma evinə qayıtdı. Biz bu gün böyük sevinclə hər çıxışımızda, hər cümləmizdə deyirik, "Qarabağ Azərbaycandır!" Bu, həqiqətən də, belədir. Ali Baş Komandan, Azərbaycan Prezidenti İlham Əliyev xalqını bu tarixi zəfərlə sevindirdi. Düşünürəm ki, Cənab Prezident bu tarixi qələbə üçün böyük əzm nümayiş etdirdi".

Aleksandr Ata Azərbaycan xalqının bundan sonra da yalnız qələbə dolu günlər yaşaması üçün dua etdiyini diqqətə çatdırıb və ermənilərin işğal etdikləri ərazilərdən çıxarkən törətdikləri vəhşiliklərlə bağlı fikirlərini açıqlayıb: "Bu, bir daha onu göstərir ki, ermənilər yenidən Qarabağa qayıtmaq ümidlərini itiriblər. Bir neçə il öncə Dilqəm Əsgərov və Şahbaz Quliyevin girov götürülməsini xatırlayıram. Onlardan biri Azərbaycan əsilli Rusiya vətəndaşıdır. Onlar dədə-baba torpaqlarında əzizlərinin qəbirlərini ziyarət edərkən bu hadisə baş vermişdi. Bu zaman nə baş verdi? Ermənilər onlara cinayət işi açdı, onları həbs etdi. Məsələnin mahiyyəti bilirsinizmi nədir? Hər insanda vətəni, torpağı və əzizlərinin dəfn edildiyi qəbiristanla bağlılıq olur. Amma bu gün ermənilər Kəlbəcərdən hər şeylərini götürürlər. Bu isə o deməkdir ki, onlar bir də heç vaxt bu torpaqlara qayıtmayacaqlar! Bu, ermənilərin öz seçimidir. Biz hamımız bilirik ki, Azərbaycan xalqı burada yaşayan digər millətlərin nümayəndələrinə hər zaman hörmətlə yanaşıb, həmçinin ermənilərə. Baxın, bu gün Bakıda 30 min erməni yaşayır. Yeni imzalanan atəşkəs bəyanatında bu bənd var ki, kim harada doğulub, böyüyüb orada da yaşaya bilər".

Aleksandr İşein multikulturalizmin Azərbaycanın dövlət siyasəti və həyat tərzi olduğunu da vurğulayıb.

# Gürcü Yəhudilərinin Bakı dini icmasının sədri vəfat edib

Azərbaycan Texniki Universitetinin (AzTU) Doktorantura şöbəsinin müdir müavini Abik Çaruxçev uzun sürən xəstəlikdən sonra 67 yaşında vəfat edib.

Abik Çaruxçev 1953-cü ildə Bakıda anadan olub. 1975-ci ildə Kirov adına Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) Fizika fakültəsini bitirib. 1977-ci ildə AzTU-nun Aspirantura şöbəsinin rəisi vəzifəsinə təyin edilib.

Bir sıra elmi məqalələrin müəllifi olan Abik Çaruxçev uzun müddət AzTU-da pedaqoji fəaliyyətlə məşğul olub. Doktorantura səviyyəsində yüksək ixtisaslı elmi-pedaqoji kadrların hazırlanması istiqamətində səmərəli fəaliyyətinə görə müxtəlif illərdə universitet rəhbərliyi tərəfindən mükafatlandırılıb.

# Din xadimlərinin iştirakı ilə videokonfrans keçirilib

Noyabrın 21-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Şirvan bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə bölgədə fəaliyyət göstərən dini icma sədrləri və din xadimlərinin iştirakı ilə videokonfrans keçirilib.

Konfrans iştirakçıları əvvəlcə Vətən müharibəsində ərazi bütövlüyümüz uğrunda canlarından keçən şəhidlərimizi bir dəqiqəlik sükutla yad ediblər.

Çıxışlar zamanı koronavirus pandemiyasına (COVID 19) qarşı ölkəmizdə görülən preventiv, profilaktiv tədbirlər, bu istiqamətdə vətəndaşların üzərinə düşən vəzifələr müzakirə olunub. O da vurğulanıb ki, hər bir din xadimi xüsusi karantin rejiminin tələblərinə riayət etməlidir. Tədbirdə iştirakçıları maraqlandıran suallar cavablandırılıb.



# Qeyri-kommersiya dini qurumlarının dövlət reyestr (Dini qurumların dövlət reyestri) məlumatları

### Ləğv olunmuş dini qurumlar

**"Zaqatala rayonunun Cimcimax kəndində fəaliyyət göstərən kənd məscidi" dini icması**

Qeydiyyat tarixi: 19.01.2001-ci il

Qeydiyyat №-si: 400

"Zaqatala rayonunun Cimcimax kəndində fəaliyyət göstərən kənd məscidi" dini icması təsisçilərinin 01.10.2020-ci il tarixli, 01 nömrəli protokol ilə həmin dini icmanın ləğv edilməsi barədə qərar qəbul edilmişdir.

Ləğv olunması: 13 noyabr 2020-ci ildə qeydə alınıb.

**"Zaqatala rayonu Mazıx kəndi "Cümə" məscidi"dini icması**

Qeydiyyat tarixi: 03.03.2008-ci il

Qeydiyyat №-si: 1308Z1-451

"Zaqatala rayonu Mazıx kəndi "Cümə" məscidi"dini icması təsisçilərinin 01.10.2020-ci il tarixli, 01 nömrəli protokol ilə həmin dini icmanın ləğv edilməsi barədə qərar qəbul edilmişdir.

Ləğv olunması: 13 noyabr 2020-ci ildə qeydə alınıb.

**"Zaqatala rayonu, Kebeloba kənd məscidi" dini icması**

Qeydiyyat tarixi: 19.01.2001-ci il

Qeydiyyat №-si: 392

"Zaqatala rayonu, Kebeloba kənd məscidi" dini icması təsisçilərinin 01.10.2020-ci il tarixli, 01 nömrəli protokol ilə həmin dini icmanın ləğv edilməsi barədə qərar qəbul edilmişdir.

Ləğv olunması: 13 noyabr 2020-ci ildə qeydə alınıb.

# BİLİRSİNİZMİ?

**2 dekabr - Köləliyin ləğv edilməsi uğrunda beynəlxalq mübarizə günüdür.** Bu tarix Birləşmiş Millətlər Təşkilatının (BMT) Baş Assambleyasının insan alverinə qarşı mübarizə haqqında konvensiyanı qəbul etməsi ilə bağlıdır. BMT-nin hesablamalarına görə, hazırda dünyada 40 milyona yaxın qadın, kişi və uşaq müasir köləliyin qurbanlarıdır. Bu isə köləliyin hələ də tamamilə aradan qaldırılmadığını göstərir. Məcburi əmək, cinsi istismar, hərbi əsirlik, ailədaxili köləlik, məcburi evlilik, (azyaşlı) qızların gəlin kimi satılması, dul qadınların miras kimi ötürülməsi, silahlı münaqişələrdə istifadə üçün uşaqların məcburi işə cəlb edilməsi, (bəlkə, uşaqların silahlı münaqişələrə cəlb edilməsi?) insan alveri və s. köləliyin müasir formalarıdır. Bu gün hökumət və ictimai təşkilatların, hüquq-mühafizə orqanlarının, digər strukturların səyləri təkcə belə halların aşkarlanmasına, qarşısının alınmasına və bu növ cinayətin təşkilatçılarının məsuliyyətə cəlb olunmasına deyil, həm də zərərçəkənlərin reabilitasiyasına yönəldilmişdir.

**3 dekabr - Beynəlxalq Əlillər Günüdür.** Bu barədə 1992-ci ildə BMT Baş Assambleyası tərəfindən qətnamə qəbul olunub. Onun hədəfi ictimai həyatın bütün sahələrində əlillərin hüquqlarının qorunması və geniş ictimaiyyətin diqqətini onların problemlərinə yönəltməkdir. Bu gün dünyada təxminən bir milyard əlil yaşayır və onlar cəmiyyətin həyatında tamhüquqlu üzv kimi iştirak etmək üçün fiziki, ictimai-iqtisadi və davranış məhdudiyyətləri ilə üzləşirlər.

**4 dekabr – Pravoslav kilsəsində Müqəddəs Məryəmin Qüds Məbədinə daxil olması günü kimi qeyd olunur.** On iki əsas dini bayramdan biri sayılan bu günün əsasında valideynlərinin Müqəddəs Məryəmi üç yaşında Qüds məbədinə təntənəli şəkildə təqdim etdikləri barədə kilsə ənənəsi dayanır. Bu gün Xristianlığın hələ erkən çağlarında qeyd olunmağa başlanılmışdır. Pravoslavlarda isə IX əsrdən etibarən geniş yayılmışdır. Rəvayətə görə, Məryəmin valideynləri övladları olmadığı üçün tanrıya dualar etmiş və övladları olacağı təqdirdə onu məbədin xidmətinə təqdim edəcəklərinə dair vəd vermişlər. Məryəmin 3 yaşı tamam olduqda valideynləri sözlərini tutmuşdur. Məbəddə yaxın qohumu Zəkəriyyə tərəfindən himayə edilən Məryəm təxminən 18 yaşına kimi burada qalaraq oruc tutmuş, ibadət etmiş, Müqəddəs Yazıları dərindən öyrənmişdir.

**5 dekabr – Beynəlxalq Könüllülər Günüdür.** BMT Baş Assambleyası 1985-ci ildə hökumətlərə hər il iqtisadi və inkişaf naminə 5 dekabr tarixini Beynəlxalq Könüllülər Günü kimi qeyd etməyi təklif etmişdir. Könüllülər boş vaxtlarını cəmiyyətin rifahı üçün sərf edən insanlardır. Dünya Könüllüləri Bəyannaməsində deyilir ki, onlar qarşılıq gözləmədən öz istedadlarını, vaxtlarını, enerjisini fərdi və kollektiv fəaliyyətlərə həsr etmək hüququna malikdirlər.

**7 dekabr – Şəbi-Ərus (Mövlanəni Anma Mərasimləri).** Mövləvilikdə "Xamdım, Bişdim, Yandım" deyərək həyatını üç sözlə xülasə edən Mövlanə Cəlaləddin Ruminin ölüm gecəsini xatırlamaq üçün Konyada təşkil edilən mərasimlərdir. Şəbi-Ərus "toy gecəsi" deməkdir. Çünki Mövlanə ölüm gününü Yaradana qovuşma günü saymış və ölümü insanın əslinə, ilahi mənbəyinə qayıtması kimi şərh etmişdir. Başqa sözlə, ölüm cismin yox olması deyil, Allaha doğru yol almasıdır. 2019-cu ildə Mövlanəni Anma Mərasimləri 7-17 dekabr tarixlərini əhatə edir.

**8 dekabr – Katoliklər tərəfindən Məryəmin günahsız doğulması günü kimi qeyd olunur.** Bakirə Məryəmə həsr olunmuş əsas bayramlardan biri sayılan bu gündə bütün Katolik təntənəli mərasimlər keçirilir. Katolik inancına əsasən, Bakirə Məryəm başlanğıcdan – ana bətninə düşən andan ilk günahdan azad olmuşdur. Bütün digər insanlar isə günahı miras alaraq doğulurlar. Lakin Məryəmə göstərilən qeyri-adi lütf sayəsində o, ilk günahdan qorunmuşdur. Ancaq bu ehkam pravoslavlıq, protestantlıq və digər bir sıra xristian cərəyanları tərəfindən qəbul olunmur.

**10 dekabr - Beynəlxalq İnsan Hüquqları Günüdür.** Bu tarix 1948-ci ildə BMT-nin Baş Assambleyası tərəfindən Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin qəbulundan sonra hər il bütün dünyada qeyd olunur. İnsan hüquqlarının qorunması BMT-nin təməl prinsiplərindən biridir və təşkilat təsis olunduğu gündən bu missiyanı davam etdirir.

**11 dekabr – Yəhudilikdə Hanuka bayramıdır.** İbrani təqviminin 3-cü ayı olan kislevin 25-ci günü başlayan və 8 gün davam edən bayrama "İşıq bayramı" da deyilir. E.ə. II əsrdə Yəhuda torpaqları Selevkilər İmperiyasının tərkibinə qatıldıqdan sonra IV Antiox qeyri-yunan əhalinin yunanlaşdırılması üçün sərt qaydalar tətbiq etməyə başladı. Lakin e.ə. 164-cü ildə Makkabinin qoşunları Antioxu məğlub etdilər. Rəvayətə görə, qələbədən sonra yəhudilər Məbəd dağına qalxdıqda burada yalnız bir günə çatacaq yağ lampaları tapdılar. Ancaq möcüzəvi şəkildə lampalar səkkiz gün ərzində yandı və bu müddət ərzində yeni yağ ehtiyatları hazırlandı. Beləliklə, Məbəd yenidən təqdis olundu. Bu hadisənin xatirəsinə hər il Hanuka bayramında şamlar yandırılır: bayramın ilk günündə 1, ikinci gün 2, üçüncü gün 3 şam yandırılır və bu say 8-ə qədər artırılır. Bir qayda olaraq bunun üçün xüsusi şamdandan - Hanukiyadan istifadə edilir.

**18 dekabr – Beynəlxalq Ərəb Dili Günüdür.** Ərəb dili 1973-cü ildə BMT-nin Baş Assambleyasında qurumun rəsmi dili elan edilmişdir. 2010-cu ildə Beynəlxalq Ana Dili Günü ərəfəsində BMT-nin İctimaiyyətlə əlaqələr şöbəsi təşkilatın altı rəsmi dilinin hər biri üçün ayrıca gün təyin edilməsi təklifini irəli sürmüşdür. Hesab olunur ki, bu təşəbbüs mədəniyyətlərarası dialoqun gücləndirilməsinə və çoxdilli dünyanın inkişafına xidmət edəcəkdir.

**19 dekabr – Yoxsullara Beynəlxalq Yardım Günüdür.** 1995-ci ildə BMT tərəfindən təsis edilmişdir. Hazırda yoxsulluq bəşəriyyətin əsas problemlərindən biri olaraq qalır. Dünyanın bir çox ölkələrində yoxsulluğun aradan qaldırılması üçün dövlət və beynəlxalq proqramlar həyata keçirilir. Eyni zamanda, sahibkarlar, müxtəlif dini və xeyriyyə ictimai təşkilatları tərəfindən yoxsullara yardım göstərilir. Bu günə qədər BMT tərəfindən yoxsulluğun kökünün kəsilməsi məqsədilə bir neçə proqram qəbul edilmişdir. İlk proqramın icrasına 2000-ci ilin əvvəlində başlanılsa da, hələ də yoxsulluq həddində yaşayanların sayı azalmamışdır.

**20 dekabr – Beynəlxalq İnsan Həmrəyliyi Günüdür.** BMT Baş Assambleyası 2005-ci il dekabrın 22-də Beynəlxalq İnsan Həmrəyliyi Gününün elan olunması haqqında qətnamə qəbul etmişdir. Qətnamə Minilliyin Bəyannaməsi əsasında hazırlanmışdır. Bəyannamədə deyilir ki, həmrəylik XXI əsrdə beynəlxalq münasibətlərin əsasını təşkil etməli olan fundamental və universal bəşəri dəyərlərdən biridir.

**20 dekabr – Zərdüştlükdə Mitra bayramıdır.** Mitra ədalətin himayədarı, Aşanın - həqiqətin hər şeyi görən gözüdür. O, Günəşlə, daha doğrusu, heç bir yalanın gizlənə bilmədiyi günəş şüaları ilə bağlıdır. Vəzifələrin yerinə yetirilməsinə, nizam-intizama riayət olunmasına, ahəngdarlığın və tarazlığın bərqərar olmasına nəzarət edir.

**22 dekabr – Zərdüşt peyğəmbərin günüdür.** Qış gün dönümündə, Günəş Oxatan bürcündən 30 dərəcə çıxdıqdan sonra Zərdüştlükdə bayram günü kimi qeyd olunur. Zərdüşt adətlərinə görə, həmin gecə çovdar unundan kökələr bişirilir və içərisinə fal mətnləri-qatlar yazılmış kağızlar yerləşdirilir. Zərdüştün şərəfinə ilahilər oxunur. Şagirdlərinin sayına görə 17 ocaq yandırılır.

**24 dekabr – Katoliklikdə Milad bayramı ərəfəsinin qeyd olunduğu gündür.** Ənənəyə əsasən, bayram göydə ilk ulduzun əmələ gəlməsi ilə başlanır. Ailə bayramı sayılan həmin günün axşamı hətta kilsəyə getməyənlər də bütün ailə üzvləri ilə birgə masa ətrafına toplaşırlar. Nahar vaxtı ailə üzvləri hazırlanmış yeməklərdən yeyir, öz arzularını deyir, sevgi və əfvi simvolizə edən vaflini bölürlər. Milad masasında bir yer boş saxlanılır. Bu adət ailələri ilə birlikdə bayramı qeyd edə bilməyən yaxın və əziz insanların xatirəsinə işarədir. Rus Pravoslav Kilsəsi bu xüsusi günü yanvarın 6-sı qeyd edir.

**25 dekabr – Milad bayramıdır.** Hər il İsanın doğulması münasibətilə qeyd edilən və geniş mədəni ənənələri olan bayramdır. Milad bir çox ölkələrdə ümummilli bayram səviyyəsində qeyd olunur, həmçinin bir çox qeyri-xristian xalqlar da bu bayramı qeyd edirlər. Azərbaycanlıların da istifadə etdiyi milad kəlməsi ərəb dilindən gəlir, mənası "doğulma" deməkdir. Xristianlar isə bayramı "Krismas" (Christmas) adlandırırlar. "Christmas" iki sözün "Christ" və "mass" sözlərinin birləşməsindən əmələ gəlməklə "İsanın messiyası" mənasını verir. Milad mərasimləri bayramdan 4 gün əvvəli (20-24 dekabr) və 6 gün sonranı əhatə edir. Bir sıra katolik ölkələrində uşaqlar mahnı oxuyaraq və xoş arzular söyləyərək evləri gəzirlər. Milad bayramının əsas elementi müxtəlif işıqlar, oyuncaqlar və s. ilə bəzədilmiş şam ağacıdır. Milad bayramında süfrənin müxtəlif yeməklərlə bəzədilməsi ənənəsi mövcuddur. Hər xalq süfrəsini özünəməxsus təamlarla doldurur. Məsələn, Almaniya və İngiltərədə qaz, yaxud hinduşkadan hazırlanmış yemək bayram süfrəsinin ayrılmaz hissəsidir.

**25 dekabr – Hindistanda Mokşada Ekadaşi bayramı qeyd olunur.** Sanskrit dilindən tərcümədə "mokşa" xilas olma, nicat tapma deməkdir. Qədim Vedalarda cəmiyyətin inkişafının dörd yolu təsvir olunur: dinin inkişafı (dharma), iqtisadiyyatın inkişafı (artha), məmnunluq hissinin inkişafı (kama) və azadlıq istəyinin inkişafı (mokşa). Maddi asılılıqdan xilas olma kimi başa düşülən mokşa müəyyən mənada maariflənmə və mənəvi kamillik ilə sinonim təşkil edir. Bu gün oruc tutmaq səmimi bir dindarı günahların bütün nəticələrindən təmizləyir və ona azadlıq verir. Mokşada Ekadaşi bayramında tanrı Damodaraya sitayiş olunur.

**31 dekabr – Dünya Azərbaycanlılarının Həmrəyliyi Günüdür.** Bu bayram ayrı-ayrı ölkələrdə yaşayan azərbaycanlılarla əlaqələr qurmaq, onlar arasında birlik və həmrəylik yaratmaq işində mühüm rol oynayır. 1991-ci il dekabrın 16-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Heydər Əliyev dünya azərbaycanlılarının birliyini yaratmağın əhəmiyyətini nəzərə alaraq dekabrın 31-ni Dünya Azərbaycanlılarının Həmrəyliyi günü elan etdi. Bundan sonra elə həmin il bayramın bütün ölkədə rəsmi qeyd edilməsi barədə Azərbaycan Respublikası Ali Sovetində qərar qəbul olundu. Bu bayramın ilk dəfə dövlət səviyyəsində rəsmən qeyd olunması 1992-ci ildə baş tutdu.

CƏMİYYƏT və DİN
№ 08 (349) NOYABR 2020-ci il

# İsveçrədə Katolik Kilsəsini tərk edənlərin sayı rekord həddə çatıb

İsveçrədə Katolik Kilsəsini tərk edənlərin sayı ötən il rekord həddə olub.

İsveçrə Pastoral-Sosioloji İnstitutu ötən il 31772 şəxsin rəsmi şəkildə Roma Katolik kilsəsindən ayrıldığını elan edib. 2018-ci ildə isə bu göstərici 25366 nəfər olub.

İnstitutdan bildirilib ki, ən mömin insanlar Cenevrə, Noyenburq, Vaadt və Vallis kantonları sakinləri sayıla bilər. Belə ki, ötən il bu kantonlarda kilsədən ayrılanların sayı cüzi olub. Bazel şəhəri kantonunda isə ölkə üzrə ən yüksək göstərici qeydə alınıb, burada Roma-katolik təriqətinə mənsub xristianların 4,9 faizi ötən il kilsədən üz döndəriblər. Sonrakı yerlərdə Aarqau (2,2 faiz) və Soloturn (2,1 faiz) kantonları dayanır.

Qeyd edilib ki, Kilsədən ayrılma üçün əsas səbəb kimi insanların ötən illərdə kilsəyə inamının azalması, sui-istifadə hallarına dair qalmaqallar, Kilsənin cinsi əxlaq mövzularında apardığı debatlar səbəb olub. Xüsusilə vurğulamaq lazımdır ki, insanların kilsədən ayrılmasının əsas səbəblərindən biri də maliyyə ilə əlaqədardır. Almaniya və Avstriyada olduğu kimi, İsveçrədə də Kilsədə qeydiyyatda olan şəxslər illik gəlirlərinin səviyyəsindən asılı olaraq Kilsə vergisi ödəyirlər və bu vəsaitlər də kilsə və monastrların saxlanması, xeyriyyə tədbirlərinin keçirilməsinə sərf olunur. Kilsə vergisini izafi xərc kimi dəyərləndirənlər isə müxtəlif bəhanələrlə bu vergidən can qurtarmağa çalışırlar və buna görə də kilsədən rəsmi olaraq ayrılırlar. Bu addım həmin şəxslərin öz dinindən imtina etməsi anlamına gəlmir.

# Ekstremizmə qarşı forumun yaradılması təşəbbüsü irəli sürülüb

Misir Prezidenti Əbdülfəttah əl Sisi və Avropa Şurasının rəhbəri Şarl Mişel Qahirədə keçirilən görüşdə ekstremizmə qarşı beynəlxalq forum yaradılması təklifi ilə çıxış ediblər.

Misir Prezidentinin mətbuat xidmətinin verdiyi məlumata əsasən, foruma İslam və Avropa ölkələri daxil olacaq. Yeni qurum ksenofobiya əleyhinə mübarizə aparacaq, dinlərarası və tolerantlıq prinsiplərini təbliğ edəcək. Forumun işində siyasətçilər və ictimai xadimlərlə yanaşı, dini liderlər də iştirak edəcəklər.

Misir Prezidenti görüşdə qeyd edib ki, terrorizm həm İslam ölkələrində, həm də Avropada ciddi problemə çevrilib. O əlavə edib ki, sülh və tolerantlıq dini olan İslamla terrorizmi eyniləşdirmək yolverilməzdir. Eyni zamanda, konkret dinlərin özəl xüsusiyyətlərinin nəzərə alınması, dindarların inancına hörmətlə yanaşılması da böyük əhəmiyyətə malikdir. Hər hansı dinin, o cümlədən İslamın rəmzlərinin təhqir edilməsinə qətiyyən yol vermək olmaz.

Tərəflər beynəlxalq və regional məsələlər, o cümlədən Liviya, Suriya və Yəməndə sülhün və təhlükəsizliyin bərqərar olması məsələlərini də müzakirə ediblər.

# Qədim Misirə aid 100-dən çox mumiya tapılıb



Misirin Saqqara arxeoloji məkanında 100-dən çox mumiya aşkar edilib.

Ölkənin turizm və qədim abidələr naziri Xalid Ənani ölkədə fəaliyyət göstərən xarici jurnalistlərin iştirakı ilə keçirilən mətbuat konfransında onları təqdim edib. O bildirib ki, oktyabrın 3-də beynəlxalq arxeoloji ekspedisiya həmin ərazidə 101 mumiya tapıb. Bundan əvvəl isə Saqqarada 59 sarkofaq aşkar edilib.

Nazir məlumat verib ki, tapılan mumiyaların olduğu tabutlar qədim Misirin son – Ptolemeylər sülaləsinin hakimiyyəti dövrünə aiddir və mütəxəssislər onların 2500 il yaşı olduğu qənaətindədir. Mumiyalarla yanaşı, Saqqarada 40 kiçik heykəl, dəfn maskaları və iki taxta heykəlcik də aşkar edilib.

Qeyd olunub ki, son qiymətli arxeoloji tapıntılar gələn il açılışı olacaq Böyük Misir Muzeyində və ölkənin yeni inzibati paytaxtındakı Mədəniyyət və İncəsənət Muzeyində nümayiş etdiriləcək.

## Bakı və Abşeron üzrə namaz vaxtları ( noyabr - 2020)

| Gün | Sübh azanı | Gün çıxır | Zöhr azanı | Əsr azanı | Axşam azanı | İşa |
|---|---|---|---|---|---|---|
| 1 | 06:18 | 07:44 | 12:29 | 15:34 | 17:31 | 18:35 |
| 2 | 06:19 | 07:45 | 12:30 | 15:34 | 17:30 | 18:35 |
| 3 | 06:19 | 07:46 | 12:30 | 15:34 | 17:30 | 18:35 |
| 4 | 06:20 | 07:47 | 12:30 | 15:34 | 17:30 | 18:35 |
| 5 | 06:21 | 07:48 | 12:31 | 15:33 | 17:30 | 18:35 |
| 6 | 06:22 | 07:49 | 12:31 | 15:33 | 17:30 | 18:35 |
| 7 | 0623 | 07:49 | 12:32 | 15:33 | 17:30 | 18:35 |
| 8 | 06:24 | 07:50 | 12:32 | 15:33 | 17:30 | 18:35 |
| 9 | 06:24 | 07:51 | 12:33 | 15:33 | 17:30 | 18:35 |
| 10 | 06:25 | 07:52 | 12:33 | 15:33 | 17:30 | 18:35 |
| 11 | 06:26 | 07:53 | 12:33 | 15:33 | 17:30 | 18:35 |
| 12 | 06:27 | 07:54 | 12:34 | 15:34 | 17:30 | 18:36 |
| 13 | 06:27 | 07:55 | 12:34 | 15:34 | 17:30 | 18:36 |
| 14 | 06:28 | 07:55 | 12:35 | 15:34 | 17:31 | 18:36 |
| 15 | 06:29 | 07:56 | 12:35 | 15:34 | 17:31 | 18:36 |
| 16 | 06:29 | 07:57 | 12:36 | 15:35 | 17:31 | 18:37 |
| 17 | 06:30 | 07:57 | 12:36 | 15:35 | 17:31 | 18:37 |
| 18 | 06:31 | 07:58 | 12:37 | 15:35 | 17:32 | 18:38 |
| 19 | 06:31 | 07:59 | 12:37 | 15:36 | 17:32 | 18:38 |
| 20 | 06:32 | 07:59 | 12:38 | 15:36 | 17:33 | 18:38 |
| 21 | 06:32 | 08:00 | 12:38 | 15:36 | 17:33 | 18:39 |
| 22 | 06:33 | 08:00 | 12:39 | 15:37 | 17:34 | 18:39 |
| 23 | 06:33 | 08:01 | 12:39 | 15:37 | 17:34 | 18:40 |
| 24 | 06:34 | 08:01 | 12:40 | 15:38 | 17:35 | 18:40 |
| 25 | 06:34 | 08:02 | 12:40 | 15:39 | 17:35 | 18:41 |
| 26 | 06:35 | 08:02 | 12:41 | 15:39 | 17:36 | 18:42 |
| 27 | 06:35 | 08:02 | 12:41 | 15:40 | 17:36 | 18:42 |
| 28 | 06:35 | 08:03 | 12:42 | 15:41 | 17:37 | 18:43 |
| 29 | 06:36 | 08:03 | 12:42 | 15:41 | 17:38 | 18:44 |
| 30 | 06:36 | 08:03 | 12:43 | 15:42 | 17:39 | 18:44 |
| 31 | 06:36 | 08:03 | 12:43 | 15:43 | 17:39 | 18:45 |

**Bakı ilə digər şəhərlər arasındakı namaz vaxtı fərqləri *(dəqiqə):*** Sumqayıt **+1**, Qobustan, Siyəzən, Neftçala **+3**, Astara, Qusar, Hacıqabul, Şabran, Şirvan, Salyan, Xaçmaz **+4,** Ağsu, Quba, Lənkəran, Masallı, Biləsuvar **+5,** Cəlilabad, İsmayıllı, Kürdəmir, Saatlı, Sabirabad, Şamaxı, İmişli, Lerik **+6,** Qəbələ, Göyçay, Yardımlı, Ucar, Zərdab **+8,** Ağdam, Ağdaş, Ağcabədi, Beyləqan, Bərdə, Füzuli, Qax, Oğuz, Mingəçevir, Yevlax **+10,** Balakən, Cəbrayıl, Goranboy, Tərtər, Qubadlı, Şəki, Şuşa, Zəngilan **+13**, Gəncə, Daşkəsən, Göygöl, Laçın, Gədəbəy, Kəlbəcər, Ordubad, Tovuz, Şəmkir, Zaqatala **+15**, Qazax, Naxçıvan, Ağstafa, Babək, Culfa, Şahbuz, Şərur **+18**, Marneuli (Tiflis) **+20.**

** Təqvim AMEA-nın Şamaxı astrofizika rəsədxanası tərəfindən hazırlanmış cədvəl əsasında tərtib olunmuşdur.*

# "Dünyanın axırı"nı gözləmək üçün yeraltı bunker

Yeraltı bunker – "Plan B" varlı müştərilər üçün həm sığınacaq, həm də rahat istirahət yerinə çevriləcək.

"Sergey Makhno Architects" dizayner bürosunun mütəxəssislərinin qənaətinə görə, dəmir-betondan düzəldilən və 2280 kvadratmetr olan bunker əsasən yaşayış yerlərindən kənarda yerləşə bilər. Bunkerin yuxarısında isə helikopter meydançası quraşdırılıb.

Layihəyə əsasən, yeraltı bunkerdə bir neçə ailə komfort şəraitdə "dünyanın axırı"nı gözləyə bilər. Belə ki, burada yataq və mətbəx otaqları, kitabxana, kinoteatr, məşq zalları, hovuz, generator, suyun təmizlənməsi və kanalizasiya sistemləri, içməli su təchizatı nəzərdə tutulub. Ərzaq isə üstüörtülü istixanalarda yetişdiriləcək.

# Tullantı yandıran zavod istirahət mərkəzinə çevrilib

Kopenhagen şəhərinin yaxınlığındakı Amaqer adasında tullantıların emalı və yandırılmasını həyata keçirən zavod şəhər əhalisinin istirahət mərkəzinə çevrilib.

Danimarkanın "BIG" arxitektura studiyasının layihəsi ilə hazırlanan və ildə 400 min ton tullantı yandıran müəssisənin ərazisində müasir elektrik stansiyası, qaçış yolları, ox atmaq üçün meydança, kafe və sair fəaliyyət göstərir.

Maraqlıdır ki, tullantıdan yaranan enerji ətraf mühitə heç bir ziyan vurmayaraq yaxın ərazidə yerləşən 62 min binanın – 160 min mənzilin qızdırılmasında da istifadə edilir.

Layihə müəlliflərinin sözlərinə görə, zavod tullantıların emalı üzrə dünyada ekoloji və enerji effektivliyi cəhətdən ən təmiz və müasir avadanlıqlara malikdir.

## Yadigar söz

*Viktor Hüqo*

***Gücün kimin tərəfində olmasının mənim üçün əhəmiyyəti yoxdur; əhəmiyyətli olan odur ki, haqq kimin tərəfindədir.***

Baş redaktor
Səyyad ARAN

Redaksiya şurası:
Şeyxülislam Allahşükür PAŞAZADƏ, Anar, Arxiyepiskop Aleksandr, Əflatun AMAŞOV, Gövhər BAXŞƏLİYEVA, Nizami CƏFƏROV, Hilal AĞAMOĞLANOV (Dizayner).

Ünvan: AZ 1001, Bakı şəhəri, Şeyx Şamil küçəsi 5
Telefon: 505 78 16; 505 78 19
E-mail: redaksiya@scwra.gov.az

Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin bölgələr üzrə müxbir məntəqələri:
Bakı şəhəri üzrə şöbə - (012) 433 86 51
Sumqayıt bölgəsi üzrə şöbə - (018) 654 00 40
Lənkəran bölgəsi üzrə şöbə - (025) 255 39 84
Masallı bölgəsi üzrə şöbə - (025) 215 51 59
Şirvan bölgəsi üzrə şöbə - (021) 215 21 30
Quba bölgəsi üzrə şöbə - (023) 335 22 70
Ucar bölgəsi üzrə şöbə - (020) 235 50 97
Yevlax bölgəsi üzrə şöbə - (022) 336 55 95
Ağcabədi bölgəsi üzrə şöbə - (021) 275 52 00
Zaqatala bölgəsi üzrə şöbə - (024) 225 32 23
Şəki bölgəsi üzrə şöbə - (024) 244 03 16
Şamaxı bölgəsi üzrə şöbə - (055) 291 40 80
Gəncə bölgəsi üzrə şöbə - (022) 256 91 14
Tovuz bölgəsi üzrə şöbə - (050) 499 07 53
İmişli bölgəsi üzrə şöbə - (021) 246 62 99

Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində yığılıb səhifələnmiş, "Universal Poligraf" nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

*Əlyazmalara rəy verilmir və onlar geri qaytarılmır.*

Aylıq qəzet
Tiraj: 1200
Sifariş: 355

Qəzet 7 may 2009-cu ildən nəşr olunur. *Azərbaycan Respublikası Ədliyyə Nazirliyində 19 mart 2009-cu ildə qeydiyyatdan keçmişdir. Qeydiyyat nömrəsi:* 2894